# DASTANİ-ƏHMƏD HƏRAMİ

“ŞƏRQ-QƏRB”
BAKI-2004

*Bu kitab "**Dastani-Əhməd Hərami**" (Bakı, Gənclik, 1978) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni, ön sözün və lüğətin müəllifi: **Əlyar Səfərli**

**894.3611 - dc 21**
**AZE**
**Dastani-Əhməd Hərami.** Bakı, "Şərq-Qərb", 2004, 120 səh.

XIII əsr Azərbaycan poeziyasının ən gözəl nümunələri sırasına daxil olan "Dastani-Əhməd Hərami" doğma dilimizdə qələmə alınmış ilk məsnəvi kimi qiymətlidir. Dastan öz qidasını xalq ədəbiyyatından almışdır və xalq yaradıcılığına məxsus xoşbəxt sonluqla bitir.

Müəllifi bəlli olmayan bu əsər əruz vəznində, sadə və aydın dildə yazılmışdır, lakin bu vəzn şeri tam özünə tabe edə bilməmiş, Azərbaycan şerinin milli bədii-poetik əsasını dəyiş-dirməmişdir. Ona görə heca vəznli şeir kimi də oxunur.

**ISBN 9952-418-16-4**

© "ŞƏRQ-QƏRB", 2004

Azərbaycan Respublikasının
Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Ana dilində yazılmış şerimizin ilkin nümunələri bizə qədər tam şəkildə gəlib çatmamışdır. Həsənoğlunun iki qəzəli, Əlinin "Qisseyi-Yusif"i XIII əsr ədəbiyyatımız haqqında müəyyən təsəvvür oyatsa da, bu siyahını bitmiş hesab etmək olmaz.

XIII əsr poeziyamızın gözəl, mükəmməl abidələrindən biri də "Dastani-Əhməd Hərami" poemasıdır. Bu əsər doğma dilimizdə yazılmış ilk poema nümunəsi kimi səciyyəvidir. Bu da təbiidir ki, qədim və zəngin ədəbi-mədəni təcrübəyə, özünəməxsus bədii-poetik ənənələrə malik olmayan bir xalq XIII əsrdə ana dilində belə bir gözəl sənət abidəsi yarada bilməzdi. Habelə bu poema göstərir ki, doğma dildə bədii əsərlər yaratmaq ənənəsi qədim dövrlərdən başlamışdır. İncə zövq, gözəl fikir bəhrəsi olan dastanın ortaya çıxarılması çox da uzaq deyildir. 1928-ci ildə türk alimi Tələt Onay onun bir əlyazmasını aşkara çıxarıb geniş ön söz, lüğət və şərhlərlə nəşr etdirir. Həm də təsdiq edir ki, əsər Azərbaycan dilində yazılmışdır. Azərbaycan alimlərindən H.Araslı, Y.Seyidov, F.Zeynalov, T.Hacıyev, S.Əlizadə, K.Vəliyev və başqalarının qədim abidənin ideya-bədii keyfiyyətləri, dil-üslub

xüsusiyyətləri barəsində irəli sürdüyü mülahizələr də diqqətəlayiqdir.

"Dastani-Əhməd Hərami" anadilli poeziyamızın ilkin təşəkkül tarixini, onun ideya-mövzu mənbələrini, sənətkarlıq istiqamətini, milli bədii-poetik xüsusiyyətlərini araşdırmaq baxımından da son dərəcə dəyərli bir əsərdir. Əsər 1632 misradan ibarətdir. Poema klassik məsnəvilər kimi ənənəvi başlıqlarla başlayır. Lakin əlyazması başdan və sondan çatışmaz olduğundan burada rəsmi başlıqların hamısını görmürük. Ona görə də poema müəllifini müəyyənləşdirmək də mümkün deyildir. Orta əsr mənbələrində də onun barəsində müəyyən qeyd və işarəyə rast gəlmədik. Lakin poema təsdiq edir ki, dastanı yazan şair öz ruhuna görə xalqa yaxın bir sənətkar olmuş, nağılçı, qissəxan kimi tanınmışdır. Şair əhvalata keçməzdən qabaq ilkin misra və beytlərdə dini-fəlsəfi və bədii duyğularını aydınlaşdırır, yeni əsər yaratmağı şərəf işi sayır. Məna dənizlərini seyr edib, tükü tükdən seçən şeirsevərləri dürr, gövhər kimi işıq saçan bədii sözdən zövq almağa çağırır, ağıl-hikmət şüası ilə onların qəlbini işıqlandırır:

*Bu dastanı bu gün bünyad edəlim,*
*Həqin qüdrətlərin biz yad edəlim.*
*Gəlin, ey məni bəhrin seyr edənlər,*
*Bu dərya gövhərindən xeyr edənlər.*
*Məanidə qılı iki biçənlər,*
*Dilindən daima gövhər saçanlar.*

Poemada hadisələr altı məclisdə verilir. XIV əsrdə yaranan Yusif Məddahın "Vərqa və Gülşa"sı, XV əsr şairi Şəmsin "Yusif və Züleyxa"sı da məclislər şəklində qurulub. Birinci əsərdə də altı məclis vardır. Bu da təsdiq edir ki, əhvalatı məclislərə bölüb vermək həmin dövr epik şeri üçün ənənəyə çevrilmişdi, həm də bunun əsas səbəbi, nağıl və dastanları xalq içərisində yaymaq, "dinləyici" yığmaq arzusundan irəli gəlirdi:

Hər məclisin axırında da dinləyicilərə müraciət olunur:

*Gəlin barı, bu gün söhbət qılalım,*
*Məani kanının dürrün bulalım...*
*Gələlim bu üçüncü məclisə biz,*
*Xəbərimdən eşidin çün xəbər siz.*

Əsər ideya-fəlsəfi məzmunu, məndəricəsi, məfkurəsi, dil və üslubuna görə xalq ruhunu ifadə edir, xalqın ürəyindən xəbər verir, nağıl və dastan ənənələri ilə yaxından səsləşir. Bu gün elə şifahi ədəbiyyat nümunələri var ki, "Dastani-Əhməd Hərami"ni xatırladır.

Əsər öz quruluşuna görə klassik poemalardan bir qədər fərqlənir. Müəllif, dastan-məsnəvi ənənəsindənsə, nağılvarı üsluba sadiq qalaraq hadisəni birbaşa başlayır, xalq dastanlarından, klassik poemalardan fərqli olaraq qəhrəmanların əsil-nəcabəti barəsində məlumat verməyə ehtiyac duymur. Şairin Nizami mövzularının dəbdə oldu-

ğu bir zamanda orijinal bir əhvalatı işləməsi də təqdirəlayiqdir. Həm də bu cəhət sənətkarın dünyagörüşü, bədii zövqü, bağlı olduğu poetik ənənələrlə izah oluna bilər. Hiss olunur ki, o, Nizaminin – dahi şairin humanist ideyalarından da ilham almışdır.

Bütün bunlarla yanaşı, Nizami poemalarında olan epik əzəmət, ictimai düşüncə və müşahidələr, insan psixologiyasını onun daxili-mənəvi aləmiylə vəhdətdə almaq "Dastani-Əhməd Hərami"də lazımi bədii yüksəkliyə qalxa bilmir. Lakin şairin bədii düşüncəsi, mühakiməsi, məntiqi, əsərdəki konflikt və onun həlli, süjet xətti və surətlərin səciyyəsi ilə bağlı olan amillər bizi düşündürməyə bilmir. Habelə bütün bunlar şairin yaşadığı mühit və gerçəkliklə yaxından bağlıdır.

Nizami zəmanəsinin obrazını, bədii-epik panoramasını yaradırdı. Tarixi-əfsanəvi hadisələr barəsində deyil, insan haqqında dastan yazmağı qarşısına məqsəd qoymuşdu, epik sənətin istiqamətini də ona yönəltmişdi. Nizaminin ədəbiyyata gətirdiyi bu yenilik duyğusu sonrakı əsrlər poeziyasına da təsirsiz qalmamışdır. "Dastani-Əhməd Hərami"də də sənətkarın qarşısında iki surət – Əhməd Hərami və Güləndam surətləri, onların bədii obrazlarını yaratmaq məqsədi dururdu. Şair qəhrəmanlarının simasında öz dövrünə məxsus xüsusiyyətləri əks etdirirdi. Məhdud əlaqə və münasibətləri qələmə alsa da, ictimai-tarixi mühiti deyil, qəhrəmanların xarakterlərini daha çox ön plan-

da verirdi. Şairin estetik və ictimai idealı da, poemanın məzmunu, mündəricəsi də bununla şərtlənir. Əsərdə əvvəldən axıra qədər Güləndamın taleyi, başına gələn macəra və əhvalatların təsviri bədii tədqiqat obyektinə çevrilir.

Klassik aşiqanə məsnəvilərdə əsərin adı, qoşa qəhrəmanların adını daşıyırdı, didaktik-epik dastanlarda isə baş qəhrəmanın adına bir "namə" sözü əlavə olunur, bəzən də mücərrəd bir məfhumla verilirdi. Bu qəhrəmanların da hamısı, demək olar ki, müsbət qəhrəmanlardır. "Dastani-Əhməd Hərami"də isə mənfi surət, şər qüvvəsi daha qabarıqdır, poemanın adı da onun adından alınıb, "namə" əvəzinə isə "dastan" kəlməsi işlənmişdir ki, bu da təbii idi. "Namə" sözünü şair işlədə bilməzdi, çünki mənfi qəhrəmanın adına "namə" sözü qoşmaq əsərin ruhu ilə bir araya sığmırdı, "namə" yalnız ideal qəhrəmanlara aiddir. Poemada əsasən həyatın mənfilikləri və insan təbiətində olan pis sifətlər tənqid olunur.

"Dastani-Əhməd Hərami"də çoxşaxəli, qol-budaqlı hadisələr olmasa da, maraqlı qəhrəmanlarla qarşılaşırıq. Dastanın hər misra və beytində şərə, zülmə, ədalətsizliyə, rəzalətə qarşı kəskin nifrət, ləyaqətli insana isə yüksək məhəbbət və qayğı, həssas münasibət vardır. İnsana münasibət bu hiss ilə bağlıdır, həmin baxımdan qiymətləndirilir, qəhrəmanların gözəl, yaxud çirkin olması da güzgüdən aşkara çıxır. Konkret bir münasibətdə – Əhməd Həraminin Güləndama münasibətində onun xa-

rakteri aydınlaşır. Eyni zamanda Əhməd Hərami zəmanə və mühitdən təcrid olunmur, onun davranışında, daxili aləmində, əlaqə və münasibətlərində dövrün əks-təsirini görürük.

Bu dastanda "Hərami" sözü mənfi məna daşıyır. Cəlalilər hərəkatı dövründən fərqli olaraq həramiyə, dəliyə dərin bir nifrət də özünü göstərir. Çünki, Əhməd Hərami və onun əlaltıları məzlum kütlələrin tərəfində durub elin, obanın səadəti naminə çarpışan Koroğlu dəlilərindən əsaslı şəkildə fərqlənirlər. Onları ancaq oğurluq, quldurluq düşündürür. Həramiləri Bağdada gətirib çıxaran da bu qüvvədir.

Azərbaycanın yazılı və şifahi ədəbiyyatında xeyirlə şərin mübarizəsini təsvir edən əsərlər çoxdur. Onlarda qara qüvvələr nəcib, gözəl insanların yolunu kəsir, yaramaz əməlləri ilə seçilirlər. Nizaminin "Yeddi gözəl"indəki yeddi nağılın hamısında bədii düşüncənin tədqiqat obyekti iki qüvvənin mübarizəsindən ibarətdir. "Dastani-Əhməd Hərami"də də Əhməd Hərami xəbisliyi, riyakarlığı, zalimliyi təmsil edirsə, Güləndam gözəllik və mərdlik rəmzidir. Əhməd Hərami oğru, yolkəsən, məşhur bir həramidir. Krımdan çıxıb Bağdad şəhərinə yola düşür, sultanın xəzinəsini yararkən doqquz yoldaşını itirir və özü də ağır yaralanır. Güləndamdan intiqam almaq eşqi ilə alovlanıb yanır. O, hiylə və tədbirlə Güləndamla evlənir. Lakin bu izdivac onun kin-küdurətini soyutmur, fürsət

düşən kimi, hətta öz qadınından belə intiqam almaq istəyir. Amma axırda cəzasına çatır.

Şair bədii məntiqi ilə inandırır ki, Əhməd Hərami cəzasını təsadüfən almır. O, pis işlərinin qurbanı olur. Poemada Əhməd Hərami ilə bağlı hadisələr təbii axarından çıxarılmır, mənfi qəhrəman keçilməz yolladan keçirilmir, əksinə, hər şey təbii və inandırıcı görünür.

Poemada Əhməd Həraminin iç üzü, onun mənəvi cəhətdən saf, işıqlı insanlarla qarşılaşdığı səhnələrdə daha da aydınlaşır. Güləndamı Krıma apararkən onu yolda ağır cəza ilə öldürmək fikrinə düşür. Doğma arvadını tonqalda yandırmaq üçün odun toplamağa gedərkən bu yerlərdən keçən Xoca Rüstəm Güləndamı xilas edə bilir. Şair Güləndamı ölümdən qurtaran Xoca Rüstəmi mehriban, səmimi, xeyirxah və qayğıkeş bir insan kimi təqdir edib bəyənir, onu müasirlərinə nümunə göstərir. Beləliklə də, bu qənaətə gəlir ki, həyatda şər yolunu tutan şərə, yaxşılıq yolunu tutan isə yaxşılığa çatır. İnsan əxlaqi-mənəvi gözəlliyi, xoş əməlləri ilə ucalır, səadətə yetir, şərə, fitnə-fəsada yuvarlanmaq isə onu bədbəxtliyə aparıb çıxarır.

Doğma ədəbiyyatımıza məxsus epik ənənələrdən biri, həm də ən gözəli qadına yüksək münasibətin bədii ifadəsidir. Xalq yaradıcılığında, klassik poeziyada bu zərif, ülvi məxluq həyatın bəzəyi və səadət mənbəyidir, dünya öz işığını onun camalından alır, saf eşqi, ağlı, kamalı qəhrəmanların qəlbini işıqlandırır, zalım şahları dəyişdirir.

Nizaminin ismət və gözəllik mücəssəməsi olan Şirini Xosrovu ülviyyət dərəcəsinə yüksəldir; incə, zərif Leyli, Qeysi Məcnun edir; cəsarət və ağıl rəmzi olan Nüşabə dünya fatehi İskəndərə müdriklik fəlsəfəsi öyrədir; təmkinli, uzaqgörən Fitnə Bəhram üzərində mənəvi qələbə çalır. Əsrlərin qaranlıq səhifələrindən ucalan "Dədə Qorqud"un Selcan xatunu, Burla xatunu, Banuçiçəyi ərənlər ərəni igidlərlə qarşılaşır, at minib ox atır, yeri gələndə yağı düşmənə qan uddurur, oğuz bahadırları yuxuda ikən kafirin başını gətirirlər. Güləndam da belə ağıllı, cəsarətli və igid bir qadındır. O, Əhməd Hərami kimi bir quldurla, sehrkarla qarşılaşır, onun üzərində həm cismani, həm də mənəvi qələbə çalır. Şair Güləndamın qələbəsini ecazkar qüvvələrlə bağlamır, onun öz mətanəti və iradəsində axtarıb tapır. Çünki Güləndam əsərdə həmişə, hər yerdə öz səadətinin keşiyində durur, eyni zamanda son dərəcə də təvazökardır. Sultanın xəzinəsini yaran oğruları öldürüb, Əhməd Həramini yaralasa da, bu xəbəri heç kəsə bildirmir.

Güləndamın bir insan kimi əxlaqi-mənəvi səciyyəsini də şair unutmur, incə, zərif boyalarla onun surətini tamamlayır. Güləndam qəhrəmanlıq çağlarında igidliyi ilə ucalırsa, ailə-məişət səhnələrində saf, səmimi duyğuları, işıqlı aləmi ilə unudulmaz təsir buraxır. Atası onu Əhməd Həramiyə ərə verəndə atasının üzünə ağ olmur, həm də Həraminin etibarına, sədaqətinə inanır, mənəviyyatca də-

yişmədiyini ağlına belə gətirmir. Təsadüfi deyil ki, ərinin quldur olduğunu atasına bildirmir, bütün bunlarla yanaşı Güləndam Şirin kimi qadınlıq ləyaqətini, ismətini, şərəfini də qoruyur.

Bir cəhət də səciyyəvidir ki, klassik poemalarda qızın eşqindən öncə ana soraq tutur, "Dastani-Əhməd Hərami"də isə ata öz qızına ərə getməyi təklif edir, ana surətinə isə rast gəlmirik. Poemadakı bu xüsusiyyət "Dədə Qorqud"la, türk xalqlarının epos ənənələri ilə bağlıdır. Bu görüşdən Güləndamın atası ilə müsahibəsi, atanın qızına müraciəti xüsusilə səciyyəvidir:

*Şəhənşah dedi: ey canım parası*
*Ki, sənsən gözümün ağı, qarası.*
*Rəvamıdur bənim sözüm sıyasan,*
*Gərəkməz ol əri bana deyəsən.*
*Əyalımsan bənim, sən, həm canımsan,*
*Cigərimsən, damarım, həm qanımsan.*
*Qərəz bir boşluq isə bu zamanda*
*Neçün istəməyəsən anı sən də?!*
*İraq yerə səni verir olursam,*
*Bənə* (*bir*) *dərddürür sənsiz olursam.*
*Səni bu yigidə kəbin edəm bən,*
*Yüzünü görə duram dəmbədəm bən,*
*Sözüm yanlış olur isə utanam,*
*Əyalımsan, sənə yavuzmu sanam?!*

Güləndam atanın bu sözlərindən sonra utandığından gül kimi qızarır, nərgiz gözləri süzülür, ədəblə atasına belə cavab verir:

*Ədəb birlə der: ey dövlətli ata*
*Səxavət kanı, ey mürvətli ata,*
*Sizə bir qarşı söyləmək eyibdir,*
*Ulular bu sözü böylə deyibdir.*
*Bizə söz söyləmək düşməz qatında*
*Həmin qulluq gərəkdir həzrətində.*
*Nə deyəyin, ata, fərman sənindir,*
*Əgər dərdli isəm dərman sənindir.*

Poemada Əhməd Hərami nə qədər soyuq, etinasız, dəvə kimi kinli bir insan olsa da, Güləndam bir o qədər təmiz və gözəldir. O, ərinin mənəvi boşluğunu görür və intiqam hissi ilə yaşadığının şahidi olandan sonra ondan üz döndərir. Öz xoşbəxtliyini namuslu, alicənab insanlar arasında arayıb tapır. Tale Güləndamı Şiraz sarayına aparıb çıxarır. Şiraz banusu – bu nəcib, həlim təbiətli insan Güləndamın qəminə şərik çıxır, onu gülər üzlə qarşılayır, qayğısına qalır; Güləndamı oğluna təqdim edərkən onun qəlbinin səsini dinləyir, eşq və gözəllik əsasında qurulan bu ailənin xoşbəxtliyinin keşiyində durur.

Güləndamın üzü gülsə də bir an da olsa o, Əhməd Həramini unuda bilmir, daima qorxu içərisində yaşayır.

Həm də özünü yox, Güləfruxu, onun taleyini düşünür. Əhməd Həramidən qorunmaq üçün qırx pilləkənli bir saray tikilməsini təklif edir. Doğrudan da, bu saray hazır olur, iki arslan və qırf nəfər igid onun keşiyini çəkir. Lakin Şiraz sarayına gəlib çıxan Əhməd Hərami sehr ilə keşikçiləri bihuş edib öldürür və Güləndamın otağına yol tapa bilir. Güləndam ölüm ayağında olsa da, əri Güləfruxu oyatmır, Həraminin onu öldürəcəyindən qorxur. Bütün cəsarətini toplayaraq Əhməd Həramini qırx pilləkəndən vurub yerə yıxaraq öldürür. Sonra isə Güləfruxu oyadır, bütün saray, Şiraz əhli son dərəcə sevinir, bu igid qadına alqış söyləyirlər. Beləliklə, poemada əhvalat nikbin bir sonluqla bitir, iki aşiqin qələbəsi ilə tamamlanır.

"Dastani-Əhməd Hərami"də şair hadisələri eləcə nağıl etmir. Bədii ümumiləşdirmələr də aparır, əhvalat və surətlərə öz münasibətini bildirməyi də unutmur, zəmanəsində baş alıb gedən oğruluğu, quldurluğu, riyakarlığı, qəddarlığı, özgəsinin səadətinə şərik çıxmağı, ruhi-mənəvi dayazlığı pisləyir. Hadisələrin gərgin inkişafında, dramatik konfliktin həllində, qəhrəmanların mənəvi simasının aydınlaşdırılmasında, öz bədii-estetik və ictimai idealını ifadəli şəkildə qələmə alır.

Poema dil və üslubca XIII əsr abidələri ilə səsləşir. Təhkiyə üsulu sadədir, dərin fəlsəfi fikirlərə, şah misra və beytlərə az rast gəlirik. Poema əruzun həzəc bəhrindədir. Həm də şeirlər on bir hecalı (4-4-3) şeri xatırladır.

Əsərdə vəzndən məqsədəuyğun şəkildə istifadə olunmur. Bəzi yerlərdə imalə və zihaf (şeirdə vəznə uyaraq bəzi hecaların tələffüzünü qısaltma və ya uzatma) da vardır. Bu da təsadüfi deyildir. Çünki anadilli poeziyamızın ilk təşəkkül çağlarında əruzla heca arasında kəskin ayrılıqlar əsasən nəzərə çarpmırdı. Əruz hələlik türkləşməmiş, milli şeir ölçüsü kimi sabitləşməmişdi. Bundan əlavə, qafiyələr içərisində də tam qafiyələrlə, yarımqafiyələrlə, bəzən də qafiyəsiz misra və beytlərlə qarşılaşırıq. Rədif və cinaslardan da istifadə olunmuşdur.

Əsərdə hadisələr Krım, Şiraz və Bağdadda vaqe olur. Bir yerdə isə Gürcüstanın adı çəkilir. Poemada Azərbaycanla əlaqəli cəhətlər çoxdur. Şair Dühəng, Hicazi, Hüseyni, Cəngi, Şahnaz, İsfahani, İraqi, Novruz, Nühəfti və s. musiqi adlarını işlədir, tənbur, ud, dünbür, nağara, davul, nay, şeştə (şeştar), saz, qopuz və s. musiqi alətlərindən danışır. Müxtəlif ailə-məişət adət və ənənələrini göstərir. Ümumiyyətlə, "Dastani-Əhməd Hərami" məsnəvisi dil və üslubca "Kitabi-Dədə Qorqud"a çox yaxındır.

"Dastani-Əhməd Hərami"nin əlyazması rüqə və süls xəttinə yaxın xətlə yazılmışdır. Poema ədəbi dilimizin ən qiymətli abidələrindəndir. Onun dil baxımından öyrənilməsi, həm də ümumtürk abidələri ilə müqayisəli şəkildə tədqiqi gözəl nəticələrə gətirib çıxara bilər. Ümumiyyətlə, burada ərəb və fars sözləri təbii olaraq az işlənmişdir. Qədim türk (Azərbaycan) sözlərinin işlənməsi də təsadü-

fi deyildir. Şair çox yerdə dəm, ol əvəzinə oluk, şoluq sözlərindən faydalanır, sifət dərəcələrini bildirmək üçün onların sonuna -raq, -rək şəkilçilərini qoşur, həmcins sözlər arasında "və" əvəzinə "i" işlədilir. Əsərdə bilim, qopuz, ər, ərən, əsən, yörə, görklü, aytmaq, sanı, saçı, taramaq, arı, uçmaq, ün, ülü, bahadır, sağdiş, soldiş, güyəv və s. sözlərin işlədilməsi də səciyyəvidir.

Poema çapa hazırlanarkən türk çapından istifadə etməklə yanaşı, burada olan müəyyən qüsurlar da aradan qaldırılmışdır.

Mətndə katibin əsərə sərbəst münasibəti nəticəsində meydana gələn bəzi vəzn və qafiyə uyğunsuzluqlarını da aradan qaldırmağa çalışmışıq.

***Əlyar Səfərli***

# Dastani Əhməd Hərami

Bu dastanı bu gün bünyad edəlim,
Həqin qüdrətlərin biz yad edəlim.

Gəlin, ey məni bəhrin seyr edənlər,
Bu dərya gövhərindən xeyr edənlər.

Məanidə qılı iki biçənlər,
Dilindən daima gövhər saçanlar.

Gəlin, barı bu gün söhbət qılalım,
Məani kanının dürrün bulalım.

Anın birligini zikr eyləyə dil,
Xatırda qalmaya zərrəcə müşkil.

Zira kim dilləri söylədən oldur,
Anın hikmətləri qullara boldur.

Anın hikmətlərinə əql irişməz,
İşinə kimsənə hərgiz qarışmaz.

Anın keyfiyyəti bulunmadı hiç,
Məkanı qandadur bilinmədi hiç.

Nə zahirdir o kim gözdən iralmaz,
Nə batindür o kim hərgiz görülməz.

Anın əvvəlinin önü bulunmaz,
Anın axırının sonu bulunmaz.

Nə dilim var anı şərh eyləyəm bən
Nə bilim var ki, şərhin söyləyəm bən.

Anın dil zikrini etmək gərəkdir,
Anın doğru yolun getmək gərəkdir.

Yüzüm qara, sözüm qısa, suçum bol,
Belim əgri, yolum doğru, boyum sol.

Şaşı baxdım, cüda düşdüm bən andan
Bənim halım necə olusər andan.[1]

Qova-qova könül dünyaya irdi,
Ömür keçdi saqalı, saç ağardı.

Əbəs yerlərdə xərc etdim yaşım bən,
Yeridir daşlara dögsəm başım bən.

---

[1] Bu beytdə qafiyə pozulmuşdur. "Bən" sözünü "gər" şəklində yazsaq, qafiyə düzələr.

Həmin vardır ümidimiz səfadan,
Məgər mədəd irişə Mustafadan.

Ümidimiz iki aləmdə oldur,
Anın şəfqətləri qullara boldur.

Dökəli ənbiya "Nəfsi" deyisər,
O ümmətlərinin qeydin yeyisər.

Salam olsun anun yaranlarına,
Müdam rəhmət irişsin canlarına.

Əbubəkir, Ömər, Osman, Əlidir,
Eyi dirliklidir bunlar vəlidir.

. . . . . . . . . . . . . . . . . . . . . . . .
. . . . . . . . . . . . . . . . . . . . . . . .

Bular tutmadılar kibri, kinayət
Bular bildi nədir dini dinayət.

Səfa xatirlər içində kin olmaz,
Kin olduğu könüllərdə din olmaz.

Sürəlim könlümüzdən kibri, kini,
Yıxarlar kibr edənlər mülki-dini.

Gəl imdi Mustafaya ver salavat,
Deyəlim necədir anla hekayat.

Eşit gəl bir həraminin sözünü,
Əgər görür isən məni yüzünü.

Olursa həqq-taaladan inayət,
Qılam bu qissəyi bir-bir hekayət.

## MƏCLİS – 1

Məgər kim ol zamanda bir hərami,
Dərib döşürmüş idi çox hərami.

Özü gürbüzdürür yalak bahadır,
Bahadırlıq yolunda key bəhadır.

Bilirdi sehr elmindən bəğayət,
Nücum elmində də qadirdi qayət.

Gər əfsun oxuyub bir gəz ürəydi
Oluq dəm ayı gögdən endirəydi.

Əli Bu Sina elmindən bilirdi,
Şəhabəddinə ol hizmət qılırdı.

Qılıc salsa bin ərə təpinəydi,
Qağan aslan kibi kim çapınaydı.

Demişlər adına Əhməd Hərami,
Çavı dolmuş idi illər təmami.

Doquz kişi anın yoldaşlarıydı,
Dünü gündüz bilə haldaşlarıydı.

İgin gürbüzlər idi ol ərənlər,
Oları qan qaşanırdı görənlər.

Duraq edibdilər bir sərp arayı,
Oları kimsə varmaya arayı.

Ol aradan yolı kəsmişlər idi,
Ey neçə qafilə basmışlar idi.

Dəlim mal yığladılar anda olar,
Hesabı yox qumaşı, simü zərlər.

Gecə-gündüz şikar edərlər idi,
Gerü ol qalaya girərlər idi.

Bularin çavı düşdi Ruma, Şama,
Kimsənə varmaz oldu ol məqama.

Çün on kişi bu hali böylə gördi,
Danışıq etdi bir-birlə oturdi.

Dedi Əhməd Hərami: ey yarənlər,
Mən eşitdim ki, Bağdadı görənlər.

Anın sultanın əngin söylədilər,
Anın malın qatı vəsf eylədilər.

Gəlin, bundan biz enəlim Bağdadə
Şikar edə və key ərqun av edə.

Özümüz şəhr içində gizləyəlim,
O şahın xəznəsini gözləyəlim.

Kim ol sultanın adıymış Şəhinşah
İkən çox mali varmış oldum agah.

Kilidin açalım, malın alalım,
Cəhanda biz ana bir iş qılalım.

Bənim hər yerdə əfsunum yazılur,
Kilidlər açılır, qapu pozulur.

Nə durursuz, durun, bir-bir quşanın,
Nə qayırın, nə qorxun, nə üşənin.

Adıdır dünyada qalan kişinin,
Əgər erkək ola və gər dişinin.

Bular durı gəlib dedi ki sərvər,
Can üstünə nə dersən, ey dilavər.

Xəzinə qapısın bərkitdilər xoş,
Tutub Bağdad yolunu getdilər xoş.

Düni günə qatıb bular çü getdi,
Beş-on gündə bular Bağdada yetdi.

Bir oda tutdular şəhrin ucunda,
İkən azadəvü qovğa yox anda.

Günüzin özlərin gizlərlər idi,
Dün olsa yolların gözlərlər idi.

Xəzinə qandalığın bildi bunlar,
Qolay yol nerdə isə buldu bunlar.

Oturdu ol gecə bunlar danışdı,
Qaçan kim dünün iki bəxşi keçdi.

Yerindən durdu ol Əhməd Hərami
Bilə yaranları düpdüz təmami.

Cəbə cövşən silahı geydi anlar,
Qəza yoluna qoyub başı canlar.

Xəzinədən yana əzm etdilər çün,
Kəmindən çıxub enib getdidər dün.

Gedərkən irdilər bir xoş araya,
İkən gökçək yapılmış bir saraya.

Yuca, möhkəm, lətif key xoş yapılmış,
Zehi memar anı arəstə qılmış.

Füsuskari yapılmış anda hər daş
Qızıl altun sıvayla xoş münəqqaş.

Məgər sultan qızı, ol xub dilaram,
Gecə-gündüz qılırdı anda aram.

Bəğayət xub idi ol şahi-şəngül
Yüzü gül, sözü bülbül, saçı sünbül.

Güləndam idi ol nigarın adı,
Şəkərdən şirin idi sözü dadı.

Utanır inci dişi danəsindən,
Sədəf ağzındakı dür danəsindən.

Gümüşdür, tazə boyn billurə bənzər,
İki cadu gözü səhharə bənzər.

Anın kimi kiməsnə görməmişdi,
Anı görən nişanın verməmişdi.

Üanar idi şəmidanı ilində,
Yazardı xət rəqəm tutmuş əlində.

Divani xət içində sehr edərdi,
O xətt içində yanı mehr edərdi.

Çıraq şövqü qamu pəncərələrdən
Saçardı şöləsin hər arələrdən.

Nə yerdə isə od pünhan degildir
Bular gizlənməgə imkan degildir.

Həramilər çün ol odu görürlər
Danışıban ol arədə dururlar.

Dedi Əhməd Hərami: bən varayım,
Kiməsnə varmı bu köşkdə görəyim.

Kəmənd atdı yuxarı çıxdı ol dəm,
Görür kim oturur bir xubi-aləm.

Qələm əldə yazar yazı oturmuş,
Yüzündən gün kibi bürqə götürmüş.

Qaçan kim qızı gördü döndü getdi,
Yenə yoldaşları qatına yetdi.

Qızı ol urmadı hərgiz məhalə,
Yetişmədi anın fikri bu halə.

Dedi: yürün gedəlim, kimsə yoxdur,
Bilin kim fəthimiz bu yolda çoxdur.

Uruban lafı bunlar tədbir etdi,
Eşit təqdir işi anlara netdi.

Rəvanü çüst ol aradan getdilər,
Xəzinədən yana azim etdilər.

Güləndam sözlərini duymuş idi,
Əlindən qələmini qoymuş idi.

Şoluqdəm pəncərə dibinə vardı,
Kəmənd biği əgildi, baxdı, gördi.

Görür on kişi qatıraq gedərlər,
Xəzinədən yana azim edərlər.

Dedi: bunlar əgər bizdən olaydı,
Bu vaxtın qancəri seyran qılaydı.

Məgər bu kişilər xırsızmı ola,
Anın için düşüb gedər bu yola?

Şu gənc arslan kibi xubi-zəmanə,
Qaqıdı xişm ilə oldu divanə.

Şoluqdəm belinə qılınc quşandı,
Bulardan qorxdu və nə heç üşəndi.

Bular çün xəznə qapusinə yetdi,
Yanınca bunların söyləyə getdi.

Bir əfsun oxudu Əhməd Hərami,
Xəzinə inlədi düşdü təmami.

Dükəli çünki açıldı qapular
Utalu-utalu çün getdi bular.

Taş eşikdə qərar etdi nigarın
Pənah etdi nədir gör intizarın.

Yalın eylədi ol hindi qılıcı,
Görün nə qılur ol fitnə qılıcı.

Gələlim biz həramilər sözünə,
Biləsiz anların fikri, sözü nə?

Xəzinəyə bular kim girdilərdi,
Qumaş, altunu aqca aldılardı.

Göhər, inci, əqiq, ləli – Bədəxşan,
Qızıl, altun, cəvahir, dürrü mərcan.

Həzaran ləvn-ləvn əlvanlı daşlar,
Hesabsız dəxi altutü gümüşlər.

Gərəyincə bulardan aldılardı,
Gerü getməgə niyyət qıldılardı.

Sözə gəldi dedi Əhməd Hərami:
Qılın bir dəm, ey yoldaşlar, arami.

Durun bir danışıq var eyləyəlim,
İşimizin sonunu söyləyəlim.

Nə var tanrı bir isə iş ikidir,
Ölüm dedikləri sanma ikidir.

Məbada izimiz duyulmuş ola,
Yolumuz dörd yana qaplanmış ola.

Ol ucdan mənzilə irəməyəvüz
Ögümüz, usumuz dərəməyəvüz.

Nişanım dəbrənir dəkin degildir,
Bu gün damarlarım sakin degildir.

Birin-birin çığın taşra varınız
Olun hazır, yolunuzu görünüz.

Üçünüz, dördünüz taşra varınca,
Bu iş məlum olur bir dəm durunca.

Həm adəm səsinə urun qulağı
Gözədibən qılın hazır yarağı.

Anın kibi olursa yorurun tez,
Bənə tezcək gəlin, xəbər verün tez.

Həzər eyləyəlim biz ol yağıdan,
Bənəm gürbüz yağıları dağıdan.

Bənim nərəmə kimsə durmaz irdi,
Necə kişlər ünümdən canı verdi.

Bular gərçi bu işi tədbir etdi,
Xuda gör kim necəyi təqdir etdi.

Həman ol birisinə kim buyurdu,
Yüzün qayırmadı qapıya sürdü.

Qapının ikisin çıxdı əgildi,
Haman taş qapıda ömrü dağıldı.

Başın çıxardı, kim baxaydı andan,
Boğazından çalar ol güli-xəndan.

Fələk peymanəsin ol dəmdə içdi,
Başı uruldu anın taşra düşdi.

Biri dəxi irişdi ol şərabə,
Nə şərabdır ömür verdi xərabə.

Macal vermədi anı dəxi çaldı,
Həman dəm gögdəsindən başın aldı.

Qılınc ilə çün anı dəxi yıxdı,
Sürüdi gögdəsin taşra buraxdı.

Dəgər növbət yenə anın birinə,
Varır ol dəxi anların yerinə.

Hələ nə söz uzadayım, e sərvər,
Doquzunun başın kəsdi o dilbər.

Həman Əhməd Hərami qaldı anda,
Qalanı yoldaşların taşda sanırdı.

Bu gəz ol dəxi qapıya yürüdü,
Qalanı qərq olub yatırdı qanda.

Qapının ikisin filhal çıxdı,
İrişdi taş qapıdan taşra baxdı.

Başın göstərdi, yenə çəkmiş oldı,
Güləndam ivmək ilə anı çaldı.

Təpəsinin saçını dərisilə
Qılıc yerə buraxdı silə-silə.

Yenə qaldırdı qılıcını çaldı
Çalamadı yoğurdu taşra gəldi.

Əlindən qurtulur Əhməd Hərami
Görür yoldaşları düpdüz təmami.

Nəzər qıldı qıza, gördü ki, qızdı,
Sarayda gördügüdür, bildi, sezdi.

Eytdi kim, e qız, etdin bənə sən,
Əgər ölməz isəm edəm sənə bən.

Həman bunu dedi və döndü getdi
Gerü, gəldigi yola azim etdi.

Güləndam dəng oluban batdı fikrə,
Həqə yüz tutdu, məşğul oldu zikrə.

Təəccüb eylədi bu işi gördü,
Dün içində əcayib sirrə irdi.

Dedi kim, ey kərim, qüdrət sənindir,
Təalallah, qamu hikmət sənindir.

Qılıcını silib qınına qatdı,
Sarayına gəlibən girdi yatdı.

O gecə sübhə dəkin qıldı təşviş,
Əcayib hal idi der bu olan iş.

Keçib ol dün yenə çün oldu gündüz,
Nur ilə doldu aləm yüzü düpdüz.

Qaçan xurşid ki, məşriqdən göründi,
Ulu dağlar qamu nur tac urundi.

Nura batdı qamu başdan-başadək
Bu cümlə nə ki, qurudan yaşadək.

Yenə cünbüşdə oldu xəlqi-aləm
Qamu vəhşü tuyurü cinnü adəm.

Xəzinədar dəxi xəznəyə vardı,
Nəzər qıldı nə adam ki, nə gördi.

Qapısı xəznənin gördü açılmış,
Gümüş altun ki, yollara saçılmış.

Doquz kişi yatır başı kəsilmiş,
Qılıcları sınıb yayı yasılmış.

Çü gördi bunları ol durdı getdi,
Şəhənşah həzrətinə irdi yetdi.

Dedi bir-bir: necə gördisə halı,
Şəhənşah danladı işbu xəyalı.

Dedi vəzirlərə: durun varalım
Necə haldır, nə başlardır görəlim.

Alıb vəzirlərini gəldi sultan,
Buları gördü tana qaldı sultan.

Xəzinədar malı dərdi və buladı,
Geri yerli yerincə şükri qıldı.

Dürüst gəldi malım hərgiz kəmi yox,
Qamu yerli yerincə əskigi yox.

Anı gördi yenə sultan açıldı,
Yürəgi tazələndi, su saçıldı.

Buyurdu qığırın eldəvü şərdə
Bulun, istən, aran əğyarü yarda.

Mənə bunun kimi lütf işləyən kim
Bu dənli xəznəyi bağışlayan kim.

Nə kişidir gətiriniz görəyim,
Nə dənli mal dilər isə verəyim.

Açıldı xəlq içində işbu dəftər,
Oxundu xəlqi-aləm qıldı əzbər.

Bulunmadı, bilinmədi bu müşkil
Ki, hərgiz həll olunmadı bu müşkil.

Güləndam kimsəyə söyləmədi heç
Bu razı xalqa faş eyləmədi heç.

İkinci məclisə ağaz edəlim,
Yenə Əhməd Həramiyə gedəlim.

## MƏCLİS – 2

Qaçan kim ol zəxmli oldı, qaçdı,
Neçə dağlar, neçə səhralar aşdı.

Düni günə ulayıban gedərdi,
Anıb yoldaşlarını ah edərdi.

Der idi: qanı sevgili yaranlar,
Nər arslan kibi ol gürbüz ərənlər.

Əlimdən qafilin çıxdı nedəyin,
Avarə oldum uş qanda gedəyin.

Bir-iki gün qərar etdi, oturdu,
Görün fikrində nə nəsnə bitirdi.

Rəvan yenə yerindən uru durdu,
Satın aldıvü on atlar gətirdi.

Malın, gəncin dükəli anda dərdi,
O atlar üstünə cümləsin urdu.

Bəzirgan şəklinə düzdü özünü,
Krıma əzm edip duttu yüzünü.

Qumaş düzdü Krımda dürlü, əlvan,
Nə dürlü hiylə edər ol nətavan.

Dəlim oğlanlar aldı ay surətli,
Gözi nərgiz, yüzi gül, bay sirətli.

Dəxi aldı qız-oğlanlar, xəlayiq
Huri sanır görən bunları bayıq.

Yarağın düzdü, qoşdu ol hərami
Krımda qalmadı ayruq ərami.

Yenə Bağdada sarı oldu rəvanə[1]
Qulaq ur billahi bu dasitanə.

Düni günə ulayıban gedərdi,
Bulammı qızı deyü fikr edərdi.

Məgər bir gün göründü şəhri-Bağdad
Gedərdi qayğısın oldu könül şad.

Gəlincə xocalar cavın eşitdi,
Qamu atlandı ana[2] qarşı getdi.

---

[1] Vəzn pozulur
[2] Ana – ona

İraqdan baxtılar bir toz göründü,
Havanın yüzü toz ilə büründü.

Dedilər kim bu nə çoxluq kişidir,
Bəzirganlıq çərinin nə işidir?

Məgər kim bu bir iqlimin bəgidir,
Sanırmısız bunu bizim biğidir.

Atın kişnəməsi və çan avazı
Dolu olmuş idi ol ulu yazı.

Xocalar endi(lər) atlı atından
Ki, bununla görüşmək niyyətindən.

Buların xatırıyçün ol da endi,
Görüşdi tez gerü atına mindi.

Qılıb mürvət xocayı gətirdilər
Qamusu ana qulluq yetirdilər.

Keçib Əhməd bıyıq burdu oturdu,
Oxudu ulularını gətirdi.

O şəhrin kətxudası dəxi belə
Bezestan kətxudası anın ilə.

Əlini aldı anların gətirdi,
Dil açdı, söylədi pərdə götürdi.

Şəhər kətxudasına der bilirvən,
Özün yaxşı kişi dövlət olurvən.

Gətirdim ərməğanlar xanə yəxşi,
Bular padişəhindürür bəxşi.

Danışıq eyləyəlim şah ilə biz
Yamanlaman bizi bilişdirin siz.

Yedi oğlan gətirdim aydan arı,
Yüzü güldür, şəkərdir ağzı yarı.

Yedi dəxi qız-oğlanlar ay üzlü,
Dini inci kibi, gül şəhd sözlü.

Yedi hindi qılıc, yedi gözəl at,
Yügürsə eyləyə karlanqıcı mat.

Həm üç gövhər gətirmişəm dəxi uş
Qəbul etsin ki, könlümüz ola xoş.

Sabahın xana səninlə varalım,
Mübarək yüzüni xanın görəlim.

Aytdı kətxuda danla gələyin,
Tapın nə kim buyurursa qılayın.

Bişirdi xoş təamlar həm buyurdu,
Qonuqluq etdi, anları doyurdu.

İçildi şərbət anda, yendi çün xon,
Ululara geyirdi xələtü don.

Çün axşam irişbən gün tolundu,
Qamu dağlar başı yavı qılındı.

Gögün üzünə yulduzlar saçıldı,
Dana yaxın yenə bir-bir açıldı.

Sabahın kətxuda qulluq yetirdi,
Xəbər Əhməd Həramiyə gətirdi.

Dedi: xoca, yaraqlanın gedəlim,
Buyur nə qulluğun varsa edəlim.

Ata atlanıb ol iki gönüldü,
Görəlim bu nəsib kimə sunuldu.

Dükəli ərməğanın aldı vardı,
Şəhənşah eşigində gəldi, durdu.

Haman dəm kətxudası girdi şaha
Dedi bir-bir bunu ol padişaha.

Dükəli vəsfi padşah qıldı məlum,
Oxunuz anı dedi şahi-məxtum.

Görəlim kimdürür, nə xocadır ol
Ki, bənim eşqimə çəkmiş dəlim yol.

Çıxıb o kətxuda aldıvü gəldi,
Görüb sultan həramiyi şad oldu.

Əlin öpdü şahın Əhməd Hərami,
Dəlim lütf ilə söylədi kəlami.

Bilgilərin bütün ərz etdi şaha
İkən xoş gəldi qayət padişaha.

Dedi gərçi sizə zəhmətlər oldu,
Bəlakin bizlərə rahətlər oldu.

Dedi Əhməd Hərami şaha: mütləq
Yer etdi eşqiniz canda mühəqqəq.

Sənin ədlini, insafın eşitdim,
Gönüldə mehrini canda iş etdim.

Dilərəm ki, duram qapında bən də,
Dəlim qul qapunuzdadur bəndə.

Qatı müştaq idim irdim qapında,
Gönüldən qul yazıldım uş tapında.

Bihəmdillah bu gün qapına irdim,
Sənin dövlətli yüzün, şaha, gördüm.

Çün anı gördü şah xülqiylə söylər
Səxavü lütfü ədlin şərh eylər.

Qulaq urdu qapıldı sözlərinə,
Nə bilsin şah anın bu sirləri nə?!

Şunun kibi yer etdi şaha ol ər
Keçirdi yanına edindi sərvər.

Gönüldən eşq ilə key sevdi canı
Qomaz yanından ertə keçə anı.

Kişi gönlündəkin kişi nə bilə,
Nə var içində məgər fitnə qıla.

Bir-iki gün bunun üstünə getdi,
Şəhənşah gör necə bir tədbir etdi.

Vəzirləri ilə bir gün danışdı,
Dedi: şu xoca eşqi bana düşdü.

Bu dənli ki kərəmlər qıldı bana
Qızımı verirəm şükranə ona.

Bana bir qol-qanad olsun otursun,
Elinə getməsin, bənimlə dursun.

Vəzirlər məsləhət gördü sözünü,
Vəli bilmədilər məni yüzünü.

Dedi sultan ki: bən bilməz olayın
Ana söylən, nədir fikri biləyin.

Mübarək dügün edib başlayavuz,
Ana görə işimiz işləyəvüz.

Bunun kibi danışıq eylədilər
Məgər bir gün vəzirlər söylədilər.

Dedilər: xoca, sordu səni sultan,
Ki, səndən gördi eylik, mürvət, ehsan.

Qızın istəyəlim almaq rəvamı?
Həlalın, xatunun olmaq rəvamı?

Dedi Əhməd Hərami: qatınıza
Qul olub durayım həzrətinizə.

Nə kim şəh der isə bən anə fərman,
Neçün yox deyəvən nə kim desə xan.

Qul oldum getməzəm qatından ayruq,
Mütiyəm bana buyurursa buyruq.

Həraminin xod istədigi oldu,
Fələkdə istədigin yerdə buldu.

Cavabını anın çün aldı bunlar,
Genə sultan qatına gəldi bunlar.

Nə kim Əhməd Hərami dedi şahə,
Qamu ərz eylədilər padişahə.

Sevindi, aydır; imdi neyləyəlim
Hələ bir qıza dəxi söyləyəlim.

Nə dürlüdür anın gönlün görəlim
Bəs andan bu işə bünyad uralım.

Bir-iki xas xadimlər dururlar,
Duruban şah qızına göndərirlər.

Sarayında xadimlər durmuş idi
Xadimlər həm qapuya varmış idi.

Məgər xadimləri bir dayə gördü,
Xəbər ol dəmdə Güləndamə verdi.

Dedi yaqutü gövhər lala, ey can
Durur qapıda, istər girə fərman.

Dedi ol dayəyə ol dəm Güləndam,
Neçün qılır eşikdə anlar aram.

Alın gəlin oları der görəyim,
Nəyə gəldi xəbərlərin sorayım.

Həzaran üzrilə anlar oturdu
Şoluqdəm mahəzər nemət gətirdi.

Bular xoni yeyib şükr eylədilər
Dua qılıb bu sözü söylədilər.

Dedi: mərcan, lala ey şuxi-şəngül
Ki, sənsən cənnətin bağında bir gül.

Atan verib idi biz qullarını
Xəzandan saxlasın haqq güllərini.

Şol ulu xoca ki gəlmişdi bunda
Qatı hörmətlidir atan qatunda.

Atanız sizi ana veribəndir
Quzum dəxi nə der, bir görəyin der.

Budurur danışığı gecə-gündüz
Rəva gördü ümidi dəxi düpdüz.

Buyur sən dəxi nə dersən görəlim,
Xəbər ver bizə şaha dəgirəlim.

Güləndam bu sözü bir-bir eşitdi,
Özünə ağlını bir-bir iş etdi.

Aytdı: nə əcəb söz söylədiniz,
Bəni bunda qatı dəng eylədiniz.

Cahanda yoxmudur bir şahzadə
Ki, verirlər bəni bir xoryadə.

Nitə rəva görür heç anı barı
Ki, bir şahin ola qarqa şikarı.

Bu nə sözdür ki, söylərsiz qatımda
Vüqarım yoxmudur qeyri qapımda.

Bular aydır: ey məhbubi-zəmanə,
Yigidə kimsə bulumaz bəhanə.

Qağan arslan kibi yaxşı yigitdir.
Gözəldir surəti, nəqşi yigitdir.

Yüzü gökçək, yerincə ağlı kamil,
Bin artuq qul qaravaş kəndinin bil.

Güləndam dedi ki, ey lala, dinlə
Sözümə görə bir iş et ki, anla.

Xəbər ver atama kim, anı alsın,
Bənim köşkümə yaxın qarşu gəlsin.

İraqdan göstərin anı görəyim
Ki, bən andan sizə xəbər verəyim.

Bular alqış elədi ikram etdi,
Güləndamın əlini öpdü getdi.

Geri sultan qatına irdi bunlar,
Güləndam xəbərini verdi bunlar.

Gələlim biz Güləndamın sözünə,
Nədir halı, nədir fikri, sözü nə?

Həzaran dürlü əndişə edirdi,
Müdam fikri həramiyə gedərdi.

Der idi kim, buları qırmış idim,
Birin öldürməyib qurtarmış idim.

Əcəbdir bu xoca degil isə ol,
Müdam sərimdə budur açılan yol.

Bu fikr ilə yedi qüssə nigarın,
Kişinin kim bilir gönlündə varın.

Keçibən ol gecə çün sübh oldu,
Durub Əhməd Hərami şahə gəldi.

Çü gəldi padişahın həzrətinə
Rəvan sultan süvar oldu atına.

Belə Əhməd Hərami bindi ata
Qızın köşkünə yaxın gəldi ata.

Birisi gəldi xadimlərin anda,
Anı göstərdilər ol xuni-baxta.[1]

---

[1]Beytdə qafiyə pozulmuşdur.

Əgilib baxdı köşkünün taşından
Bilir anı şoluqdəm cünbüşündən.

Dedi bunu: bənə zinhar gərəkməz.
Kişi kəndi canın oda buraxmaz.

Əgər atam bəni buna verirsə,
Həlal olsun qanın kim öldürürsə.

Bəni ana verirsə hal düşvar
Ki, bu halda əcayib dürlü iş var.

Çü lala bu sözü andan eşitdi
Dəlim üzrü ilə gör nə iş etdi.

Dönüb dedi: əya məsturi-aləm,
Ki, sənsən cahan içrə xubi-aləm.

Sizə gəldigimiz eyb etməyəsiz.
Atan hökmilə gəldik qatına biz.

Bunu dedivü xadim durdu getdi,
Güləndamın sözün şahə ilətdi.

Bu gəz sultan durub gəldi qızına,
Qızı qarşu varır sultan üzünə.

Görür kim, atası gəlir yaluğuz,
Gəlir illa məlul, xatiri yavuz.

Məlul gördü atasın oldu pürğəm,
İləri evdi əlin öpdü ol dəm.

Dəlim izzətlə aldıvü gətirdi,
Keçib təxt üstünə sultan oturdu.

Şəhənşah dedi: ey canım parası
Ki, sənsən gözümün ağı, qarası.

Rəvamıdur bənim sözüm sıyasan,
Gərəkməz ol əri bana deyəsən.

Əyalımsan bənim sən həm canımsan,
Cigərimsən, damarım, həm qanımsan.

Qərəz bir boşluq isə bu zamanda
Neçün istəməyəsən anı sən də?!

İraq yerə səni verir olursam,
Bənə (bir) dərddürür sənsiz olursam.

Səni bu yigidə kəbin edəm bən,
Yüzünü görə duram dəmbədəm bən.

Sözüm yanlış olur isə utanam,
Əyalımsan, sənə yavuzmu sanam?!

Atasın dinlədi ol mehribanı,
Qızardı gül kibi bənzi, utanı.

Təri dür kibi yüzündə düzüldü,
Gözü nərgizlərin ol dəm süzüldü.

Yanağı gül kibi öylə qızardı
Atasından utanır, həm qızardı.

Ədəb birlə der: ey dövlətli ata
Səxavət kanı, ey mürvətli ata.

Sizə biz qarşı söyləmək eyibdir,
Ulular bu sözü böylə deyibdir.

Bizə söz söyləmək düşməz qatında
Həmin qulluq gərəkdir həzrətində.

Nə deyəyin, ata, fərman sənindir,
Əgər dərdli isəm dərman sənindir.

Qızından çünki sultan dinlədi söz,
Dua qıldı və dedi: ey gözəl yüz.

Həzaran dürlü ana alqış etdi,
Əsənlədi qızını durdu, getdi.

Atası gedicək artırdı dərdin,
Bu sözün sanma kim olaydı sərdin.

Məlul, qəmgin qalıban ol nigarın
Sarardı gül yüzünün növbaharın.

Driğa, gör atam bənimlə netdi,
Əlim aldı bəni yabanə atdı.

Güləndamın digərgun oldu halı,
Həramidir düni, güni xəyalı.

Yatur ol gecə qəmgin zarü tənha,
İçindən keçirir nə söz, nə qovğa.

Çü sübh oldu yerində durdu sultan,
Oxudu bəylərin dərdi ol xan.

Dügün saçısına gəldi ulular,
Əkabirlər, Əmirlər, yəktulular.

Qamu bəylər gəlir anda irişir,
Dügün içün yaraq edib duruşur.

Gələn xəlqi yedirdi, toyladı xoş.
Təmam qırx gün dügünü eylədi xoş.

Əcayib dürlü-dürlü nemətü xun
Yedilər qurtü quş qalmadı məğbun.

Gümüş, altundu təpsilə çanaqlar,
Dolu-dolu içi nemət tabaqlar.

Hərisə, qəlyəvü danə tuturqan
Quş ətlərilə qoyun cümlə büryan.

Çü dügün savulub axıra irdi,
Hərami ol gecə gərdəgə girdi.

Eşid imdi bu yandan əcəblər,
Eşidənlər anı yavlak əcəblər.

Güləndamın məgər bir razdaşı
Var idi, xoş idi anınla başı.

Gözəl bir qızdurur gənduyə manənd
Seçilməz bir-birindən sözləri qənd.

Bir alma sana idin özlərini,
Göyərdin mahitaban yüzlərini.

Biri-birinə bənzər idi mütləq
Yaratmış süni birlə anları həq.

Küçücükdən bilə ulalmış idi,
Güləndamın xuyunu almış idi.

Güləndam ana bir-bir vəsfi-halın
Oturdu dərdini dedi xəyalın.

Dedi ol qıza: get tez var donan gəl,
Bənim qayqularımı yabana sal.

Bənim şəklim oluban gərdəgə gir,
Səninlə arada olsun bu tədbir.

Saqın bu razı kimsəyə deməgil,
Bu sözü kimsəyə faş eyləməgil.

Dedi ol qız: e məhbubi-zəmanım,
Fəda olsun yolunda dadlı canım.

Başım üstünə nəkim buyurursan,
Sözündən çıxmayam gər öldürürsən.

Varıb qız donanıb gəldi oturdu,
Bular bu fikrilə nə iş bitirdi.

Qaçan kim ol döşək vaxtı olurdu,
Donanırdı ol işə qız gəlirdi.

Güləndam yerinə ol qız varırdı
Çü haşa! Cariyə varıb görürdü.

Netəkim ol gecə olurdu hacət,
Qız ilə olur idi ol hekayət.

Tamam bir yil bu rəsmə vardı bu iş
Bunun üstünə keçdi bu yazı, qış.

Görün bu çərxi-qəddarın işini,
Bu məkkarın gəl anla cünbüşini.

Qıza bir gün irişdi əmri-təqdir
Ki, bozuldu bu üzdən rəyi-tədbir.

Güləndam qıldı şöylə zari-tənha
Məlamət içrə qaldı dəngi-şeyda.

Eşindən ayrılıb hal oldu düşvar
Der idi qanı ol yari-vəfakar.

Çü yaxdı hicr oduna kəndözünü,[1]
Həqə ismarladı ol dəm özünü.

---

[1]K ə n d ö z ü n ü – kəndi özünü, özü-özünü.

Dilini tutdu əbsəmcək oturdu
Vəfası yox cahanın çünki gördi.

Gələlim bu üçüncü məclisə biz
Xəbərimdən eşidin çün xəbər siz.

## MƏCLİS – 3

Məgər Əhməd Hərami bir gün azdı,
Görün kim, xatirində ol nə düzdü.

Şəhənşahə der: ey bəylər bəyi, sən
Cahan içində daim olgil əsən.

Dəlim nemətlərin xoş yedim, içdim,
Dəlim işrətlər etdim şadi keçdim.

Yaman gün görmədim hərgiz qatında,
Özüm yaxşı keçirdim həzrətində.

Vəli bir hacətim var söyləyəm bən
Bu gün halu sizə şərh eyləyəm bən.

Malım, mülküm bənim çoxdur Kırımda
Öküş gəncü xəzinəm var yerimdə.

İcazət bən quluna ver gedəyim,
Varıban anları həp cəm edəyim.

Şəhənşah aydir kim dəstur verəyim,
Ötə nə vəqt gəlirsən biləyim.

Ayıtdı (kim) əgər diri qalırsam,
Bucuq yil əglənəm gər çox olursam.

Bucuq yil müntəzir olun bizə siz,
Tapuna altu ayda irəvüz biz.

Çü bəd fel əbtər dəstur aldı,
Güləndamın qatına sürdü gəldi.

Dedi kim, ey bənim, yarım, nigarım,
Vəfadarım, həlalım, qəmgüsarım.

Atandan dəstur aldım şahi-şəngül,
Kırıma getməgə, ey yüzü gül, gül.

Qapından ayrı bənə gün gərəkməz,
Bəşarət, şadlıq, dügün gərəkməz.

Çün olduq sənü bən məşuqü aşiq
Bulunmaz dünyadə bir yari-sadiq.

Kərəm eylə sözümdən çıxma, ey dost,
Bəni həsrət oduna yaxma, ey dost.

Bilə gəl gedəlim bu qutlu yola
Ola kim tanrı xeyrin vermiş ola.

Güləndam aytdi: ey bənim həlalım,
Tapındır bağçavü mülk ilə malım.

Nə kim siz buyurursuz xeyr əgər şər,
Anı tutmaq yerincə bizə düşər.

Ağalar dedigin tutmaq gərəkdir,
Ağu sunar isə yudmaq gərəkdir.

İnanıb sözünə ol mah-peykər
Yidildim söziğə, – dedi, – e sərvər.

Atasıyla, anasıyla görüşdü,
Bu gəz getməgi yarağına düşdi.

Dedi gönlündən ol kafir degil bu.
Əcəbmi getsə dildən ol yavuz xu.

Necə bir kin tuta, tərk etdi ola,
İçindən kibri, kini getdi ola.

O dadlu sözlərə gönlü qapıldı
Yürəgi tazələndi, su səpildi.

Gəlir başına nə kim yazsa təqdir,
Adam dedigi olmaz cümlə tədbir.

Qılan bu işləri cümlə xudadur,
Əgər qüdrətdürür, əgər qəzadur.

Nigarı nabəkara oldu çün seyd,
Düzər Əhməd Hərami yol için qeyd.

Həmin bir qarnaq aldı və iki qul,
Görüşdü şah ilə tutdu həman yol.

Güləndamı alıb getdi işinə,
Görün nə gəlisər onun başinə.

Çü bunlar oldular yola rəvanə,
Qulaq ur billahi bu dastanə.

İrərlər İsfəhan şəhrinə bir gün,
Biləsincə Güləndam xubü mövzun.

Qovdi[1] Əhməd Hərami anda rəxti
Ol iki qulu, qırnağı buraxdı.

[1] *Qoydu* deməkdir

Güləndamı yaluquz aldı getdi,
Eşit imdi hərami anda netdi.

Gözətmədi sağını və solunu,
Həman ol tutdu Gürcüstan yolunu.

Güləndamın yüzünə baxmaz idi,
Gönül eşqinə hərgiz yaxmaz idi.

Anın ilə yaxınlıq etməz idi,
Zira kibr içindən getməz idi.

Hənuz bikirdi ol xubi-zəmanə
Nəsib olmadı qız ol qəltəbanə.

Sözü söyləyicək sərd söylər idi,
Fəsad etsə gönüldən eylər idi.

Anın cünbüşünü gördü Güləndam
Bu məni sirrinə irdi Güləndam.

Dedi kəndözinə: ah neylədim bən,
Ağuyı göz görə nuş eylədim bən.

Nədən qorxarisəm ana sataşdım,
Səməndər kibi odlara dutaşdım.

Dəlim fikr eyləyib qəmgin gedərdi,
Anıb şəhzadəligin ah edərdi.

Hərami anda qondu bir dərəyə
Ki, insan uğramazdı ol arayə.

Güləndama dedi: dövşür ögünü
Bilirmisən bənə sən etdügünü?

Adım degülmüdür Əhməd Hərami?
Qanı yoldaşlarımın intiqamı?

Ərənlərə qılıc vurmaq necədir?
Oğurlayın yigit qırmaq necədir?

Sənə göstərəyim bir-bir bu gün bən,
Əgər göstərməz isəm ər degiləm.[1]

İş edəyim sənə aləmdə düpdüz
Ki, anın kibi iş heç görməmiş göz.

Güləndam aydır: ey şöhrəti-afaq,
Əgər suçlu isəm sən tanrıya bax.

Ərənlərin işi mürvət degilmi,
Bu gün dünya, yarın axrət degilmi?!

---

[1] Qafiyə pozulmuşdur.

Eşitdim bən səni bizə irincək,
Sənin hər dürlü cürətin görüncək.

Atama sirrini faş etmədim bən.
Xəzinə açdığın (faş) etmədim bən.

Dilərdim bənim ilə yar olaydun,
Nə bilirdim belə əğyar olaydun.

Hələ mürvətinə nə sığsa işlə
Gərək öldür, gərək canım bağışla.

Həqə saldım görəyim həq nə işlər,
Bunun kibi başa çox gəlir işlər.

Güləndamın sözini almadı heç.
Zehi zalım eyninə gəlmədi heç.

Yanından dörd dəmir qazuq çıxardı
Şəhənşahın qızın çarmıxa gərdi.

Döküdü dörd qazuq dörd yana möhkəm
Zehi cövrü cəfadur, z ehi sitəm.

Güləndamı əlindən, ayağından,
Sarar möhkəm çəkər bağlu bağından.

Dedi: sənə dəxi gör nedərim bən,
Hələ dağa oduna gedərim bən.

Budur qəsdim səni oda yaxam bən
İraqdan xoş tamaşana baxam bən.

Bir ata bindi, birisini yetdi,
Varıb dağdan odun almağa getdi.

Güləndam qaldı ol əfqan içində,
Fəğanü zar edib giryan içində.

Sanasan kim, xəzan yaprağı düşdi,
Və bir tər gül solub toprağa düşdi.

Nələr qılır görün bu çərxi-qəddar,
Qılır dərdə necələri giriftar.

Güləndam kəndü birlə söylənirdi,
Həqin birligini zikr eylənirdi.

Dedi: ki ey kərimi-karsaza
Xudavəndi-qədimü biniyaza.

Mədəd (dinlə) sözüm mədəd, xudaya,
İlahi, sən dəf ver bu qəzaya.

Yürür ikən tavus bal bağ içində
Boğuldum qaldım uş irmağ içində.

Bunu dedi, xudaya dutdu yüzün
Bu şeri başladı sən dinlə sözün.

İnilti ilə bir gəz eylədi ah,
Aytdı: sana sığındım, ay Allah.

## YALVARIŞ

Görün imdi bənə netdi zəmanə,
Əlimi aldı uş atdı yabanə.

Nədir bunca bənə cövrü cəfalar,
Məgər kim qəhr içün bəslədi anə?

Suçum nədir, əcəb netdim, nə qıldım,
Qara bağrum bənim qərq oldu qanə.

Hənuz dəxi qızıl gül qönçəsindən
Açılmadan nə tez döndü xəzanə.

Cəfa imiş bu dünyanın vəfası
Ki, bin yaxşı işi dəgməz yamanə.

Görün bu çərxi-gərduni ki, bəni
Sapana qoyuban atdı yabanə.

İlahi, düşmüş əhvalın bilən həqq,
Sənə sığındım, ey həyyi-təvanə.

Bunu söylər idi, zari qılardi
Gəhi ağlı gedərdi, gah gələrdi.

Şu rəsmə kim, qılırdı ahü əfğan
Gözündən yaş yerinə dökülür qan.

Ol iqlimlər isuzluq olmuş idi,
Kiməsnə uğramaz duyulmuş idi.

Həramidən o yol işləməz oldı,
O yoldan karivan kəsildi qaldı.

Vəli həq tanrının lütfi dəlimdir,
Kərimdirü rəhimdirü əzimdir.

Məgər bir qafilə yol azmış idi,
Günün iki ülüsü keçmiş idi.

Var idi bunların içində bir ər
Qatı gürbüz bahadur idi sərvər.

Atı yögrük idi, kəndi yaraqlu,
Ürəkli idi ol gözi çıraqlu.

Xətayi yay əlində, ox dolu kiş,
Bahadurluq ana olmuş idi iş.

Gedib öncə qaravul olmuş idi,
Adına Xoca Rüstəm derlər idi.

Qulaq urub nigarının sözinə
Rəvan salığın aldı omuzinə.

Nəyiki deyibən (belinlə yörək)
Gəlirdi çevrə yanın dinləyərək.

Bir adəmdir ki, canı yox içində
Güləndamı görür çarmux içində.

Görür kim, xəsmi getmişdir qatından
Şoluqdəm atlayıb endi atından.

Güləndamın qatına gəldi sordi
Güləndam halın ana edüverdi.

Qəribəm, – dedi, – bu eldə, suçum yox,
Bu çərxi-dun bənə cövr eylədi çox.

Yigit çün bir-bir eşitdi sözini
Həqə ismarladı ol dəm özini.

Anın şeşdi əlini, ayağını,
Dükəli gedərir bəndi-bağını.

Atının ardına aldı nigarı,
Huri yüzli bəşər, ol gülüzarı.

Yügürübən irər yoldaşlarına,
Dedi əhvalı ol haldaşlarına.

Qaçan yoldaşları qızı gördülər,
Qamusu qorxubən candan keçdilər.

Üşənirlər, hərami duya derlər,
Gələ bizi qıravü soya derlər.

Yigit etdi: üşənmən, qorxu yemən,
Bizə qarşı hərami dura demən.

Dedi ki, bən bunu qardaş edinəm,
Verəm bir yigidə yoldaş edinəm.

Oralardan bular durmadı getdi
Eşit imdi hərami anda netdi.

İki at yükü odun varıb aldı,
Güləndamı oda urmağa gəldi.

Gəlir görür yerindən getmiş ol qız,
Süvar oldu atının birinə tez.

Yola girdi izin çaldı bularun
Qızı alıb gedən ol xocalarun.

Canına od düşüb sanki qudurdu,
Saqalın yoldı, köksünü çox urdu.

Yügürdü atını məhmizə urdu
Buların izlərin gözətdi gördü.

İraqdan həramiyi gördü anlar,
Danışdı bir-birilə durdu anlar.

Dedilər: ol hərami bu kişidir
Özini bin ərə urmaq işidir.

Qatında bunlarun gur saz var idi,
Göl içində çox ördək, qaz var idi.

Yigit aydır ki, qızı gizləyəlim,
Həramiyi yalquz gözləyəlim.

Gəlib söylərsə cəngə duruşalım,
Anunla cəng edəlim, uruşalım.

Neçün yüz döndərəlim bir kişidən,
Nə deyisər bizi, aydun eşidən.

Önürdü məskənətlə söyləyəlim
Becid olur isə cəng eyləyəlim.

Qızı gizlədilər ol dəmdə saza,
Sığındılar qədimi-biniyaza.

Kayıtların yedilər ol gəlincə,
Yaraqlandı qamu hallı halınca.

Qılıncını çəkib irdi Hərami,
Eşit gör nə cəvab verir Hərami.

Aytdı bunlara kim durunuz, hay
Ki, bu gün başınıza gəlisər vay.

Qeydsiz xoş gedərsiz söyləməzsiz,
Sağ-əsən keçməgə şükr eyləməzsiz.

Əlimdən sizlər alırsız avımı,
Dəxi eşitmədinizmi çavımı.

Aytdı Xoca Rüstəm: ey yigit sən
Avını görmədik, heç dutma bizdən.

Nə adın bilirüz, nə xod nigarın,
Neçün əlindən alavuz şikarın.

Nə istərdin yetirdin, bilməzüz biz,
Yazıqdır bizə böhtan qılmanız siz.

Yüzimiz suyilə gökcək gedərüz,
Biz ayruğun şikarını nedərüz.

Buların üstünə baxdı, inandı,
Şoluqdəm ol aradan getdi, döndü.

İçini od dutdu istərdi qızı,
Ovavü, dağivü meşəvü yazı.

Aradı çox nə buldu və nə duydu,
Bir ata bindi, ol birini qoydu.

Yenə düşdi buların ardlarınca,
Atın çapıb səgirdir suylarınca.

Dedi: neçün inandım bən bulara,
Bular xod bənə qılmışdır mudara.

Yenə bir dəxi anlara varayım
Alayım malın anları qırayım.

Gəlirkən nagəhanə yolu azdı,
Yol üç bəxş oldu ol birinə getdi.

Şiraza dutdu yüz getdi karvan,
Biləydi ol Güləndam şahi-xuban.

Söz öküş, aqibət şəhrə varurlar,
Həqə şükr eyləyibən yüz ururlar.

Bir ulu xanə gəldi qondu bunlar,
Döşün verib qamusu endi bunlar.

Qumaş karvan sarayı içrə doldu,
Oturub hər biri arayim qıldı.

Keçibən Xoca Rüstəm çün oturdi,
Oxuyuban Güləndamı gətirdi.

Aytdı kim, e məsturi-zəmanə,
Baxarmısan bu çərxi-asimanə.

Kiməsnəyə vəfa qılmaz bu dünya,
Olur fani, bəqa qılmaz bu dünya.

Məlul olma, ey yüzü gülü lalə,
Bayağından şükür eylə bu halə.

Bən axrətlik səni qardaş edindim,
Gönüldən yarü həm yoldaş edindim.

Yemədim qəsd ilə bən heç həramı,
Ki, gəzdüm Rumi və Şami təmamı.

Aytdı: sözüm eşid, ey yüzi gül,
Şükür qıl padişaha ağlama, gül.

Nə əndişə içindəsən halın de,
Bənə könlün nə dilər əhvalın, de.

Bənim şəhrimə əzm edərmisən sən
İraqraqdur elim, gedərmisən sən?

Yaxud atana qovuşdurayımmı?
Qədəm Bağdad yoluna urayımmı?

Səninlə həqq için yedik duz-əkmək,
Nədir dersən, nədir durmağı getmək?

Güləndam aydır: ey kani-səxavət,
İmanlı kişidə olur şəfaət.

Nə kim etdin bənim haqqımda ehsan,
Əvəz verə sənə ol yuca sübhan.

Bəni çün ol haramzadə Hərami,
Yenə bulmaz isə qılmaz arami.

Arayıraq bəni qatında bulur,
Uğurlayu gəlir, biz dünlə alur.

Yaxud bir gün ki yolu sataşır ol,
Gecə-gündüz bənim üçün çəkər yol.

Bənə kərəm buyur bundan gedəyim,
Zavallı başıma dərman edəyim.

Bu şəhrin hakimi kimdir sorayım
Qaravaş oluban anda durayım.

Xatunu həzrətinə irişəyim
Əlin öpüb anınla görüşəyim.

Mədəd olursa bənə andan olur,
Geri dərman bənə sultandan olur.

Aytdı ki, Xoca Rüstəm, e canum,
Özün bilir, əya ruhi-rəvanım.

Gedərəm bən əsən qal sən, e sərvər,
Nerədəysən çələb səninlə rəhbər.

Qulağında nə kim var idi cövhər,
Əlində, ayağında həqq, e sərvər.

Xoca Rüstəmə cümlə bəxşiş etdi
Anasız bizi, – dedi, durdı getdi.

Sən uş dördüncü məclisə nəzər qıl
Görün kim, nəyə varır uşbu mənzil.

## MƏCLİS – 4

Məgər sultanı ol şəhrin bəğayət,
Əcayib görklü idi binəhayət.

Hənuz oğlan idi, on idi yaşı,
Vəli kirpigi ox, yay idi qaşı.

Yaratmış süni birlə anı çün həq
Mələkdürür deyəydin anı mütləq.

Yüzü gül, boyu sərvü bənzi lalə,
Gözi nərgis, qaşı bənzər hilalə.

Atası dünyadan nəql etmiş idi,
Ata taxtını kəndi tutmuş idi.

Hənuz dəxi diri idi anası,
Könüldən yox idi zərrəcə pası.

O ruhi-salihə məsturə-xatun
Neçə tutsaq əsir almışdı satun.

Neçə qulları azad eyləmişdi,
Yalın donadıb aclar toylamışdı.

Anın qapısına vardı Güləndam,
Taş eşikdə oturdu qıldı aram.

Məgər qapıçılar anı görürlər,
Şoluqdəm xatuna xəbər verürlər.

Dedilər gəldi bir kişi əbalı,
Durur qapuda bilməziz nə halı?

İçərü girməgədir meyli anın,
Bilin halın o xatuni-zamanın.

Çıxıb bir xadim anı aldı gəldi,
Yüzin tutub Güləndam tapu qıldı.

Uru durdu, salamın aldı xatun,
Məlikzadəydigini bildi xatun.

Alıb yanına, taxtına çıxardı,
Olub heyran camalına baxardı.

Dedi xatun ki: nədir söylə halın.
Yumub qürə necə açıldı falın?!

Dedi: eşit, e xatuni-zəmanə,
Deyəm halımı gətirəm bəyanə.

Bıçaq sögügə irdi neyləyəyin,
Barı razmı bir-bir söyləyəyin.

Başıma bir zaval gəldi nedəyin,
Biliməzim ki, qancaru gedəyin.

Qızıyam şahi-Bağdadın biləsən,
Gərək bu dərdimə dərman qılasan.

Dökülmədik dürür yüzüm suyu hiç,
Yavuz nəsnəyə könlüm olmadı piç.

Dedi xatuna bir-bir halını qız,
Nəyə uğradığın, əhvalını qız.

Həramidən necə qurtulduğunu,
Həramiyə nə işlər qıldığını.

Dökərdi qanlu yaşın ağlar idi,
Başına gələni şərh eylər idi.

Qızın sözlərini xatun eşitdi,
İçi acıldı çün bir gəz ah etdi.

Dedi kim, heyf ey məstur, özünə,
Ki toz qona idi ol gül yüzünə.

Həzə yazı idi ki, gəldi başa,
Əzəldən yazılan pozula, haşa.

Diriğa, gör nə yazılmış bu yazı,
Nə işin idi gəzmək dağı, yazı.

Sonu xeyr ola qüssə yemə, canım,
Kərim edə kərəm, ey mehribanım.

Güləndamı gönüldən sevdi xatun,
Dedi: olma məlul, ey xubi-mövzun.

Güləndam yüzini çünkim açardı,
Sarayın içinə şölə saçardı.

Baxar idi xatun anın yüzünə,
Qalır valeh ol məhbub özinə.

Der idi kim gecə-gündüz arasam,
Sərasər dünyayı bir-bir darasam.

Bunun kibi lətif qanda bulaydım
Ki, oğluma anı kəbin qılaydım.

Eşitdik kim anın bir xub sülalə,
Var idi oğlu irişmiş kəmalə.

Yaşı on yedisində kəndi məhru,
Yüzün görəndə qalmaz idi qayğu.

Camalı günəşə rövnəq bağışlar,
Ziyası aləmə mütləq bağışlar.

Hənuz evlənmiş idi ol cəvanbaxt,
Atasından ana qalmış idi taxt.

Nişanlısı var idi, ölmüş idi,
Anası bu fikirdə qalmış idi.

Şiraz iqlimi şahıydı atası,
Evərmək niyyətindəydi anası.

Güləfrux idi adı ol əyalın,
Şiraz sultanı oğlu xub cəmalın.

Anası anı qatına qığırdı,
Qızın vəsfin ana bir-bir degirdi.

Dedi: gəldi bizə bir xatun ögərdi
Ki, yəni oğlunun gönlün əgərdi.

Der idi: yoxdur anın heç nəziri,
Atası şəhri-Bağdadın əmiri.

Bulunmaz hüsn içində ana manənd
Yüzi güldür, sözü bülbül kibi qənd.

Güləfrux aydın ana: göstər anı,
Görəyin bən dəxi bir eni kanı.

Dedigin dənlü varmıdır görəyin,
Əgər canum sevə, gönül verəyin.

Dedi xatun: yürü var köşkinə çıx,
Qamu pəncərələrin eylə açıq.

Bən ol məhbubənin əlin alayın,
Sənin həzrətinə qarşu gələyin.

Təfərrüc eylə köşkündən görəsin,
Necə məhbubədir ol can parasin.

Güləfrux şah yuxaru taxta çıxdı,
Açıb pəncərələrin taşra baxdı.

Alır xatun Güləndamın əlini,
Gəlir sərvi dalı kibi salını.

Sanasan tavus idi bağ içində,
Ya huri qızıdır uçmaq içində.

Boyu bənzər idi sərvi, çinarə,
Yüzü gülə, yanağı güli-narə.

Güləfrux gördi çün anın camalın,
Təfərrüc qıldı ol hüsni-kamalın.

Güləndam gönlün anın qıldı yəğma
Güləfrux şahə düşdi eşqi-sevda.

Yenə xatun alıb getdi nigarı,
Güləfruxun gedər səbri, qərarı.

Haman dəm dayəsini dərib idi,
Alın, gəlin anamı bura, – dedi.

Oxudular anası gəldi şahə,
Görür oğlanı düşmüş dürlü ahə.

Dedi: ana görüb sevdim bən anı,
Anın eşqi bulubdur könlü, canı.

Bu dərdin de nədür nəyə sataşdın
Ki, bu eşq oduna yanıb tutaşdın.

Bir-iki ay səbr eylə görəlim,
Atasına da xəbər göndərəlim.

Eşitsin atası dəxi sevinsin,
Qızının qüssələrindən avınsın.

Güləfrux der: bıçaq sögügə irdi,
Nə səbr edəm, çü fürsət ələ girdi.

Bir iş var kim, anı təcil edərlər,
Bir iş var kim, anı təcil edərlər.[1]

Çü xatun oğlunu gördi bu halda,
Gönül getmiş, gözü qalmış xəyalda.

---

[1] Birinci misradakı *təcil* tələsmə, ikinci misradakı *təcil* isə təxirə salma, yubandırma mənasındadır.

Şoluq saət genə gəldi saraya,
Nigarilə oturdu bir araya.

Dedi: ey xubların cananı sənsən,
Gəlin edinirəm səni, nə dersən.

Məsəldir sevəni sevmək gərəkdir,
Eyi niyyətlərə irmək gərəkdir.

Güləndam bunların fikrini bildi,
Baş aşağı əgib fikirə daldı.

Həyasından qızardı, eylə tərlər,
Sanasan kim, gülə düzüldü dürlər.

Dönüb dedi kim ey xatuni-sərvər,
Hüma idim vəli uş tökmüşəm pər.

Qəribəm, miskinəm, şimdi yetiməm,
Ana layiq olası bən degiləm.

Xüsusən kim bənə bir kişi düşman,
Əgər bulsa bəni heç verməz aman.

Ola kim, aqibət bir gün gələ ol,
İkən zalimdürür bir iş qıla ol.

Bənim ucumdan ol şəhzadəyə bir
Ələm irişə, budur fikri-tədbir.

Bənim xod bu fəraqum bənə yetər,
Mərəz ola içimə dəxi betər.

Dedi xatun: nə canı var gələ ol
Ki, bizim qapımıza ol bula yol.

Əgər qul oluban uçar olursa,
Dənizlər aşıban keçər olursa.

Gəliməz bunda ey xublar güzini,
Keyik basmaz olu arslan izini.

Güləndam dəxi söyləmədi təkrar,
Həqiqət dinməməklik olur iqrar.

Rəvan muştıladılar şaha anı
Güləfrux eşidib şad oldı canı.

Buyurdular yarağ edin dügünə,
Xəbər oldu dükəli elə, günə.

Ulu, kiçi anı qamusu bildi,
Dügün qutlulamağa cümlə gəldi.

Bədəxşanın şahı həm anda gəldi,
Güyəgüyə də anda sağdıc oldı.

Ulu bəylər qamu keçdi oturdu,
Nəqiblər ol saat xonlar gətirdi.

Yeməklər gəldi anda dürlü əlvan,
Dənə, pirincü zərdə hübbi-rəmman.

Gərəkcə bişdi qəlyəvü boranı,
Şu dənlü dökdilər yoxdur oranı.

Gəlir danəvü irişir hərisə,
Dəxi zərdəvü hər nə aş ərisə.

Keyik və davşan, kəklik əti bol
Qonuldu dörd yana xoş sağ ilə sol.

Dolu nemət gümüş, altun çanaqlar,
Sinilər, təpsilər, bir-bir tabağlar.

Buna bənzər dəxi çox dürlü meyvə
Şəkər, badam, gülabü şirü xurma.

Çalınırdı neyü dəmburü tənbur
İçilir idi dolu abi-əngur.

Yemək-içmək, dəlim işrətlər oldu,
Söz ögüş, qırx dünü gün toylar oldı.

Tamaşavü dügün söhbətlər oldı,
Dügün axıra irdi və dağıldı.

Güləfrux ol gecə gərdəgə girdi,
Güləndam ikram edib duru gəldi.

Zehi dövlət bu gəz buldı iki şah,
Günəş qoynuna girdi ol yüzü mah.

Cəvahir mədəni gəncə sataşdı
Dirəksüz bir gülü gülzara düşdi.

Buluşdu bülbül ilə gülstanı,
Soruşdu tutilə şəkkərstanı.

Sanasın anların firiştə biri,
Biri sankim behişt içində huri.

Çü hər ləzzət ki bal yağa qarışdı,
Öpüşdivü qucuşdıvü sorışdı.

Dolaşdı sərvi dalına sənubər,
Buluşdu ol iki bədri-münəvvər.

Sabahadək bular heç gözlərini
Uyumadı yumub nərgizlərini.

Münəvvər oldu cümlə sübhi-sadiq
Vühuşə gəldi çün insani-natiq.

Qamu bəylər görü qapıya gəldi,
Divan bağlandı və cümlə cəm oldi.

Güləfrux şah süvar oldı atına,
Bilə sağdıcı həmmam niyyətinə.

Gəlib həmmam içində yundılar xoş,
Çün işlər hasil oldu döndilər xoş.

Güləfrux şah saraya geri gəldi,
Gülə-gülə əlin-əlinə aldı.

Əl alışıb yenə taxta çıxarlar,
Yenə eşq odunu canda yaxarlar.

Qonuşdu şəms ilə çün mahi-taban
Biri Bilqeys, biri sankim Süleyman.

Buyurdu çünki qonaqlar oturdu
Müğənnilər əl əbrişimə urdu.

Gəlir ağazə dürlü sövti-pərdə
Eşidənlər bulur dərmanı dərdə.

İraqü İsfahan, Novruzu Şahnaz
Edərdi bir-birinə iki şah naz.

Nühuftivü Hüseynivü Hicazi
Dilə gəlib çalardı dürlü sazi.

Həm on iki məqamı seyr edərlər
Dəvazdəvü şeşüni deyr edərlər.

Nəhüft eyləyibən çəngi dizildi,
Qopuzu şeştə avazı düzildi.

Dühəng avazının vəzni bəlirdi,
İnilti ilə nay nəfrin qılırdı.

Şu kimsələr çalardı udi, təmbur
Gözəl məhbubələr hər birisi hur.

Beş-on gün çün bular işrətlər etdi
Eşit gəl məniyi, anla ki, netdi.

Məgər bir gün Güləndam aydar: ey şah,
Bilib sirrini bəndən olgil agah.

Buyur kim, bir ulu köşk eyləsinlər,
Xanalar biri bir üzrə qosunlar.

Dəxi qırx ayaq olsun nərdibanı,
Dəlim tərtib ilə düzsünlər anı.

Ayaqdan-ayağa bir qul otursun,
Əlində hər biri hərbə götürsün.

İki süffə yapılsın taş qapuda,
İki arslan müdam dursunlar anda.

Bir-iki qul da anda hazir olsun,
Ol arslanlara daim nazir olsun.

Bu iş bitməzsə, könlüm sakin olmaz,
Yüzüm gülərsə, canım bil ki, gülməz.

Gecə-gündüz bizi xoş bəkləsinlər,
Həraminin şərindən saxlasınlar.

Güləndam çünki bu sözləri dedi,
Güləfrux şah anın qeydini yedi.

Buyurdu çünki memarlar dərildi,
Bir ulu köşk içün bünyad uruldu.

Gecəvü gündüz ustadlar duruşur,
Yaxın gündə tamam olur irişür.

Yuca, möhkəm, mürəttəb xoş düzildi,
Müsəvvər nəqş içi, taşı yazıldı.

Əzildi lacivərd ilə dəlim rəng,
Müzəhhəb işləri görən qalır dəng.

Xətayi yaprağilə Rumi şəmsə
Yazıldı görmədi ol rəsmə kimsə.

Həm altun idi hər bir pəncərəsi,
Ağ incidən bəzəndi hər yörəsi.

Füsuskari döşəndi fərşi düpdüz.
Kim, anın kibi sənət görmədi göz.

Qızıl, altun idi həm şadrəvanı,
Gümüş hövza axar anın rəvanı.

Zəbərcəddən həm ördəklər düzildi,
Kənarına suyun çevrə dizildi.

Müsənniflər dəlim rəsm urmuş idi,
HəTirdən pərdələr kim gərmiş idi.

Nə kim göz var idi həp (si) quruldu
Tamam oldı və həm bünyad uruldu.

Güləfrux şah Güləndam ilə şadan
Çıxar köşkə ol iki mahi-taban.

Görürlər cümlə iş yerli yerincə,
Bin artuq oldı anlar dedigincə.

Bu tərtibi görüb şadı qılurlar,
Gəzib seyran edib gerü gəlürlər.

Bu məclisi bu yerdə qəsr edəlim,
Bu gəz beşinci məclisə gedəlim.

## MƏCLİS – 5

Yenə Əhməd Həramidən xəbər bil,
Nitə oldı həkayət anla, aqil.

Nədir anlayasan anın zavalın,
İşi, gücivü feli-fitnə halın.

Oturmazdı gecə-gündüz, arardı,
Güləndamı nə bulurdı, nə gördi.

Nə üşənərdi, nə yoldan azardı,
Bulam deyü Güləndamı gəzərdi.

Qərar eyləməyib dün, gün gedərdi,
Nigarına yavuz əndişə edərdi.

Gedərməzdi dilində kibri, kini
Kin əhlidir yıxanlar mülki, dini.

Der idi: gər anı bir göz bulaydım,
Ana bən bilir idim nə qılaydım?!

Əgər ol sehrilə aya sağarsa,
Əgər Zöhrə olub gögə ağarsa.

Can əlimdən bənim ol qurtaramı,
Məgər bən degüləm Əhməd Hərami!

Bunu böylə deyib gəzərdi düpdüz,
Arardı elləri dünilə gündüz.

Zehi bədəslü murdar guri-məğbun,
Haramzadə, füzul, məhrumi, məhzun.

Oda yanıcı düşmən, yil qoyucu,
Ətini dişləyüb göksin urucu.

Deməzdi kim, olan oldı və getdi,
O kindarlıq eşit kim ana netdi.

Yamanlıq sansa bir kişi işinə,
Son ucu sandığ gəlir başına.

Məsəldir kəndi düşən ağlamaz, der,
Axan dəryayı kimsə bağlamaz der.

Tamam bir yil aradı ol, nigarı,
Lətifü simi tən ol gülüzarı.

Kiməsnədən xəbər almadı hərgiz,
Necə kim istədi, bulmadı hərgiz.

Eşidilmədi andan bir avazə
Yolu bir gün məgər irdi Şirazə.

Görür kim şəhr içində bir ulu bağ,
Yemişlər dopdolu axardı irmağ.

Dolu reyhanü nəsrinü çəmənlər
Bitibdir dürlü nərgizlər, səmənlər.

Hərami ol bağı qaçan ki gördi,
Enib atdan gəlib içəri girdi.

Buluşdu bağban ilə görüşdü
Biri birisinin halın soruşdu.

Dilər kim bir xəbər andan alaydı,
Güləndamı nə yerdədir, biləydi.

Şoluqdəm bağban süfrə gətirdi,
Gəlibən keçdi dizbədiz oturdu.

Bunun ilə yeyərək söyləşərək,
Bir-iki söz gəlici əyləşərək.

Hərami aydır: ey yari-yeganə,
Soruncam var gətirəyim lisanə.

Bu şəhrin kimdürür ayt padişahi,
Bu xəlqin kim olur miri-sipahi?

Aytdı bağban, ey mərdi-mərdan,
Eşitgil kimdürür bu şəhrə sultan.

Bizim əvvəlki sultanımız öldü
Güləfrux oğlu kim anın şah oldu.

Ögüşdür ədli, şakir xəlq andan,
Qamu xoşnuddürür kafir-müsəlman.

Dedi: oğlanmı, yigit, ya qocadur,
Ya ərgənmi, ya evli, hal necədür?

Aytdı kim hənuz oğlandır, ey yar,
Yaşı on səkkizində, ey vəfadar.

Tamam bir yil olubdur evlənəli,
Güləndamı sevibən ol alalı.

Dedi: kimin nəsin alıbdurur ol,
Kimin qızına cift olubdurur ol?

Aytdı: şahi-Bağdadun qızını
Alıbdurur sevibdir xub yüzünü.

Dedi kim, nə səbəbdən aldı anı?
Arayıbən ya qanda buldı anı?

Aytdı kim, anı sən anlar isən,
Deyəyin vəsfi-halın dinlər isən.

Anı bir al ilə hərami almış,
Tamam bir yil anın ilə dirilmiş.

Atasından ayırmış bir gün ani
Atası bilməmiş nədir məani.

Alıb varıb anı çarmuxa gərmiş,
Nagah bir qafilə üstinə irmiş.

Alıban ol həraminin əlindən,
Gögərçini toğanın misqalından.

Gəlir son ucu bu şəhri-Şirazə.
Görür şahzadə anı tazə-tazə.

Əsildə həm ulu, həm hüsnü kamil,
Dəxi zirəkü hər dəm ağlı kamil.

Göricək yüzini bin canü dildən,
Güləfrux sevdi anı bin gönüldən.

Dügün eylədi, kəbin etdi aldı,
Əcəb budur anı həm bikr buldı.

Bədəxşan şahı sağdıc oldı ana
Qulaq ur deyəyin vəsfini sana.

Güləfrux buyurur kim tez oluqdəm
Ki, bir köşk yapdururlar yuca möhkəm.

Nə aydam ki, necə düzdilər anı
Eşitdüm qırx ayaqdur nərdibanı.

Hər ayağında birər qul oturur,
Əlində qılıcü hərbə götürür.

İki arslan qapuda əgrəşirlər
Biri-birinə qarşu igrəşirlər.

Əgər nərrə dev olursa, gör anı,
Çəkər, yırtar, həlak edərlər anı.

Hərami gələ deyü ehtiyat yer,
Anın içündürür düzgün qamu der.

Nagah bir gün ki, ansız gələ derlər,
Gecə-gündüz anun qeydini yerlər.

Həqincə dinlədi bir-bir HƏrami,
Bu gəz buldu yenə ol niknami.

Sevindi, dərisinə sığmaz oldu,
Gönüldən qüssə getdi, şadi gəldi.

Görün ol zalimi nə qəsd etdi,
Atına bindi, dağa doğru getdi.

Varır dağda bulur avçı yigitlər
Avı xod xoş bilur avçı yigitlər.

Çıxardı verdi altun bulara,
Dönübən söylədi ol avçulara.

Dedi: iki diri keyik gərəkdir,
Tutu verin bənanı tizrəkdir.[1]

Yayıldı ol yigitlər cümlə dağa
Şikar istəyü baxup sola, sağa.

Söz öküş, iki keyiki tutarlar,
Ağır baha ilə ana satarlar.

Geyik çün əldə kirdi geri döndi,
Gəlib şəhr ucuna bir yerə qondu.

Dünün yarısına dəgin oturdu,
Şu dənli kim qamu xəlqi yaturdu.

Duru gəldi yenə könli qərarı,
Dəxi heç qalmadı səbri, qərarı.

Yaraqlandı, bəlikləndi, donandı,
Yüzi qarardı, gözi qana döndi.

Qılıc quşandı ol dəmdə belinə,
Görün kim nə gəlir anın yoluna.

---

[1] B ə n a n ı – bənə anı, mənə onu

Geyiklərin ayaqlarını bükdi,
İki qoltuğına anları aldi.

Gönüldi girdi ol qəza yoluna,
İşin bilməz kişi sonra yoluna.

Sürüb ol nabəkar çün köşkə gəldi,
Həyətin qapısını çünki buldı.

Yenə əfsununu oxudu ürdü,
Qapu açıldı, ol içəri girdi.

Arslanlardan yana yüz tutdu getdi,
Qaçan kim anların qatına yetdi.

Olar dilərdi kim, həmlə edələr,
Bunu qıynağilə yırtıb didələr.

Geyikləri şoluqdəm atı verdi,
Buların həmləsin üstündən ərdi...

Ol arslanlar geyikləri göricək
Müqəyyəd olmadı ana giricək.

Geçər andan girir qullar qatına,
Tana qaldı buların heybətinə.

Ol oturaqda kim qullar oturmuş,
Qılıcı hərbələr əldə götürmüş.

Kimi yalın bıçaq əlinə almış,
İşində hər birisi hazır olmış.

Bir əfsun oxuyub torpağa ürdü,
Buların üstünə anı sovurdu.

Qamusu uyquya vardılar anlar,
O qırx sərhəng yaraqlu oturanlar.

Aşağa duranın kəsdi başını,
Görün bu çərxi-qəddarın işini.

Onu qoydı, birisin dəxi kəsdi,
Qana qərq oldi nərdübanın üsti.

Birisinün boğazın yenə tutdu.
Boğazladı anı götürdü atdı.

Qamusunu buların şöylə gözlər,
Kimin boğar və kimini boğazlar.

Söz ögüş, biri-bir buları qırdı,
Tənindən başların cümlə ayırdı.

Buların dirligini çünki yıxdı,
Rəvan kəndi yuxarı göşkə çıxdı.

Çün ol qırx kişinin qanını içdi,
Yuxaru çıxdı köşk qapusun açdı.

Dilər idi girəcəgiz bulara,
Ura idi şoluqdəm zəxmi yara.

Güləndam ilə şahı öldürəydi,
Dəxi hər kimi bulursa qıraydı.

Bu xişmilə içəri girdi ol it,
Sərəncamı nəyə irişdi, eşit.

Məgər düş görür ol gecə Güləndam,
O düşün heybətindən titrər əndam.

Bu idi gördügü düş ol nigarın,
Görür bir qara it gəzər kənarın.

Gəlibən xişm ilə üstünə durdı,
İsıra idi, yəni kim dalardı.

Ayağından Güləndam iti dutdı,
Yerə çaldı, götürdü taşra atdı.

Güləndam qorxdu, bəlinər oyanur,
Anın ciyərinə qorxu boyanur.

Dedi kim, ey kərim, xeyr et düşümi,
Gönüldən sən gedirgil təşvişümi.

Bunu dedi, gözindən axdı yaşı
Yenə söküldü ol dəm bağrı başı.

Güləfrux aydır: ey dildari-məstur,
Nə sözdür bu dedigin ağlını dur.

Hələ bir dəm düşi təkrir edərdi,
Yenə xeyrə yorub təbir edərdi.

Yenə qəflət basar bunlar uyurlar,
Görür həm çox əcəb dürlü seyirlər.

Qapuyu çünki açdı ol Hərami,
İçəri girdi, qalmadı arami.

Yalın qılıc əlində əjdəhadur,
Həramidir, vəli gürbüz bəhadur.

Şəfaətsüzdürür yoxdur amanı,
Nə din bilir o zalım, nə imanı.

İmanlu kişidə olur şəfaət.
İmansuzda nə din var, nə dinayət.

Yapışdı ol nigarın çün əlinə,
Ki, yəni qəsd edə ol can gülinə.

Bəlinlədi nigari huri sani,
Görür üstində durmuş ol zəbani.

Güləndama dedi kim, nə durursan,
Bən Əhməd Həramiyi kim görürsən.

Əlimdən can qaçan qurtarasan sən,
Di imdi eylə başun çarəsin sən.

Doquz yoldaşımın kəsdin başını,
Həlak edib bitirdin həm işini.

Səni bən dəxi alayın, gedəyin,
Nə kim sən bənə etdün, bən edəyin.

Gözünə qarşu bunı öldürəyin,
Bənə etdigin işi bildirəyin.

Güləndam aytdi kim, bunun suçu nə?
İşi etmək gərək layiq suçuna.

Nə sən bunu bilirsən, nə səni bu,
Ər isən, bəni öldürgil, bunu qo.

Hənuz bu idi qullarını qırdın,
Qeydsiz gəldin uş saraya girdin.

Hərami aydır: imdi yatma tez dur,
Nə işləyəm bu yolda sənə bir gör.

Gərək bu dəm səni alam gedəm bən,
Nə üçün bu yigidə qəsd edəm bən.

Turu gəldi Güləndam key pərişan,
İçində dərd odu, cigər dolu qan.

Ol aradan fəraq ilə gönüldi,
Əzəl bəzmində anə ol sunuldi.

İçindən geçirir dərd ilə ahın,
O dərd odundan əriyəydi ahən.

Dedi kim ey xudaya, dərdiməndəm,
Mədəd qıl bən zəifə, müstəməndəm.

Bu gün bənə bu verməz heç amanı
İlahi, bəndən ayırma imanı.

Bunu der, axıdur yaş göynə-göynə...
O Güləndami-xub, ol yüzi ayna.

Hərami öncə, ardınca Güləndam
Qılınc əldə dutub gedər o bədnam.

Yuca tanrı kərimdir, işlər işlər,
Xeyirli qulların xeyrin bağışlar.

Gələlim biz Güləndamın sözinə,
Biləsən vəsfi-halı nə, sözi nə?

Gəlirlər, nərdibanın çaq başinə,
Qulaq ur sən Güləndamın işinə.

Təvəkkül eylədi ol dəm həqə çox,
Baxar çevrəyə, kimsədən mədəd yox.

Yüzün döndi, həqə qıldı niyazı,
Münacat eylədi, dinlə bu yazı:

Sığındım sən kərimü kirdigarə
Kərim, işi kərəm pərvərdigarə.

Bu gəz altıncı məclisə girəlim,
Güləndam nə qılır anı görəlim.

## MƏCLİS – 6

Dutub can qulağın bu sözü dinlə,
Nəyə varur bu işin sonu anla.

Güləndam usunu başa gətirdi,
Həqə sığındı, gör nə iş bitirdi.

Rəvan ol qırx ayaqlı nərdibandan
İtər Həramiyi yayaq andan.

Uçurdu yer yüzünə ol hərifi,
Zi gənc arslan, dilavər gör zərifi.

Çü sürüçdi ayağı ol nabəkarın,
Yürəginə su səpildi nigarın.

Gəhi başı dönər, gahi ayağı,
O gedişdə kişi nedər dayağı.

Yerə toxundı ol dəm endi çün baş,
Dağıldı oldı benyi xurdi xaşxaş.

Canın ismarladı cəhənnəmə ol,
Paralandı ayağı, başı, əl, qol.

Nə kim etmişdi, imdi tanrı verdi,
Güləndamı muradına irirdi.

Kişi yavuz işə etsə bünyad,
Son ucu andan alır haqqın ustad.

Qaçan kim dadını aldı Güləndam,
Güləfrux şaha gəldi ol dilaram.

İrib təcil ilə içəri girdi,
Hənuz dəxi Güləfrux şah uyurdi.

İkən qəflətdə uyğu tutmuş idi,
Bu halı duymadı nə etmiş idi.

İkən xoş oldu kim duymadı anı,
Görüb ol zalımı ürkmədi canı.

Güləndam gəldi aydır: hey dur əxi!
Həramiyə nələr etdim gör axı.

Güləfrüx şah aydır: ey nigarım,
Dəl oldun olamı, gözü xumarım.

Sənə ertə bitilər yazdırayım,
Həkimə dəxi şərbət düzdürəyim.

Xəyalındır ki qorxarın həmişə,
Bu sözə insan ağlı nə irişə?!

Güləndam aydır: imdi dur, görəsən,
Bənə andan bitilər yazdırasan.

Çıxar görür nə qul var, nə rəiyyət
Dönüb sordu ki, hey, nədir hekayət.

Güləndam söylədi kim, ol bədəxtər,
Yüzü qara Həramiyə – qara ər.

Nə kim bəkçi qulun var idi, qırmış,
Gəlüb ta kim səri qatıma girmiş.

Uyur ikən səni döşəkdə qoydum,
Səni sığındığımdan ana uydum.

Bəni alıb gedərkən nagəhani,
Başından nərdibanun itdim ani.

Haman ol dəm yıxıldı, endi andan
Küpürdisin eşitdüm bir zamandan.

Müdara əhlidir, sehri dəlimdir,
O ki məkkar kişidir, həq alimdir.

Dirimi, ölümi bilməzəm anı
Nədir bilmək gərək ol qəltəbanı.

Güləfrux xəlqinə ol dəm çığırdı,
Yaraqlanın gəlin, – deyü qığırdı.

Yaraqlandı eşidən anda gəldi,
Qapıda cümləcigi hazır oldi.

Yaxıban şəmdanlar, gördü anlar,
Ol arslanlar keyik yer gördü anlar.

Təəccüb eyləyib cümlə dururlar
O qulların halın anda görürlər.

Qoyun kibi qırılmış yatır anlar,
Rəvan axar idi sel kibi qanlar.

Hərami olmuş idi xurdi, xaşxaş,
Nə qol qalmış, nə bud qalmış, nə xod baş.

Dizildi xalq həraminin qatinə,
Tana qaldılar anın qamətinə.

Güləfrux anı gördi, oldı həm şad,
Çü düşmən öldi qəmdən oldı azad.

Buyurdı tez nəqarələr urıldı,
Xəbər oldı üç şəhrin xəlqi gəldi.

Sevinib cümləsi şadan olurlar
Yüz uruban həqin şükrin qılırlar.

O gecə sübhədək işrət edərlər,
Sabah olucağız gör ki, nedərlər.

Başın Əhməd Həraminin kəsərlər,
Dəxi gövdəsini bürcə asarlar.

Alıb bəylər başın meydanə çıxdı
Nişan içün qabaq yerinə dikdi.

Tamaşayı görür ol gün əmirlər
Ulu, kiçi, sipahilər, vəzirlər.

Oxa dikdilər ol düşmən başını,
Son ucu noldu gör anın işini.

Yavuz sanıları başına gəldi,
Nə kim sanırdı xəlqə, kəndi buldu.

# LÜĞƏT

**A**

*Abi-əngur* – üzüm suyu, şərab
*Ağaz* – başlama, başlanğıc
*Ahən* – dəmir
*Aqı* – zəhər
*Al* – hiylə, sülalə
*Arəstə* – bəzənmiş, bəzəkli
*Arı* – saf, təmiz
*Aytmaq* – demək, söyləmək
*Azim* – yola düşən, niyyət edən

**B**

*Bədəxtər* – bədbəxt, uğursuz
*Bədnam* – pis ad qazanmış
*Bədr* – on dörd gecəlik ay, bütöv ay.
*Bəliklənmək* – silahlanmaq
*Bəlirmək* – zahir olmaq
*Bəşarət* – şad xəbər, gözaydınlığı
*Bəzirgan* – tacir
*Bəzm* – qonaqlıq
*Bilim* – məlumat, elm
*Bilirvən* – bilirəm
*Birin-birin* – birər-birər, sıra ilə
*Birlə* – bərabər, ilə
*Biti* – nüsxə, dua
*Bünyad* – təməl, əsas
*Bürqə* – üz örtüyü, rübənd

**C**

*Cəbə* – zireh
*Cövşən* – zirehli
*Cüda* – ayrı
*Cüft* – qoşa, cüt
*Cünbüş* – hərəkət, görünüş

**Ç**

*Çalınmaq* – vuruşmaq, çarpışmaq
*Çav* – şöhrət, şan, ün
*Çələb* – tanrı
*Çərx* – fələk, dövran, dolanma

*Çəri* – əsgər
*Çü* – çünki, elə ki
*Çüst* – yeyin, çevik

**D**

*Dad* – intiqam, qisas
*Deyəvən* – deyəyim, söyləyəlim
*Dəgirmək* – xəbər aparmaq
*Dəlim* – çox, bol
*Dəng* – huşunu itirmiş, baş ağrısı
*Dənli* – bol
*Dəstur* – icazə, göstəriş
*Digərgün* – başqa cür, alt-üst
*Dil* – ürək
*Dilaram* – gözəl, ürək rahatlığı
*Dilavər* – igid ürəkli
*Dinayət* – dini ehkama itaət
*Diriğa* – əfsus, heyf olsun
*Dişi* – qadın
*Divani xətt* – fərman və bəratların yazıldığı xətt növü
*Donatmaq* – geydirmək
*Dun* – alçaq, rəzil
*Dün* – gecə
*Düş* – röya, yuxu
*Düşvar* – çətin
*Düvazdə ün* – on iki səs, on iki musiqi muğamı

**Ə**

*Əbrişim* – ipək
*Əbsəm* – dilsiz, lal
*Əbtər* – övladsız, sonsuz, faydasız
*Əgrəşmək* – əyləşmək, oturmaq
*Əkabir* – böyüklər, ulular
*Əndişə* – düşüncə, fikir
*Ər* – igid, qəhrəman
*Ərən* – igid, qəhrəman
*Ərisə* – əriştə
*Ərməğan* – hədiyyə, töhfə
*Əsən* – sağ

**F**

*Faş etmək* – yaymaq
*Fələk peymanəsi* – ölüm şərabı
*Fəraq* – ayrılıq

*Filhal* – bu saat, tez
*Firiştə* – mələk
*Füsuskari* – al-əlvan daşlarla bəzəmək, mozaika

**G**

*Gələci* – söz-söhbət
*Gənc* – xəzinə
*Gərdun* – dolanan, dönən, tale
*Gəz* – dəfə
*Giryan* – ağlayan
*Gönlünü görmək* – razılığını almaq
*Gönülmək* – getmək, çıxmaq
*Görə duran* – görüb duran
*Görklü* – gözəl, görünüş
*Göz* – çadır, yurd
*Gur* – çöl eşşəyi, qəbir
*Gürbüz* – qüvvətli, sağlam, qorxulu
*Güzin* – seçən, bəyənilmiş

**H**

*Həlalı* – qadını, zövcəsi
*Hənuz* – hələ, indi
*Hərami* – quldur, oğru
*Hərbə* – qısa süngü, balaca nizə
*Hərgiz* – heç bir zaman, heç bir vaxt
*Hərir* – ipək
*Həyy* – diri, canlı
*Həzar* – min
*Hüma* – dövlət quşu
*Hüseyni* – bir musiqi muğamı

**X**

*Xab* – yuxu
*Xadim* – hərəm ağası, qulluqçu
*Xas* – xüsusi, seçilmiş
*Xəsm* – düşmən
*Xişm* – acıq, qəzəb
*Xoca* – tacir, varlı
*Xod* – öz, özü
*Xon* – süfrə
*Xoryad* – çirkin, kifir
*Xu* – xasiyyət
*Xub* – yaxşı
*Xun* – qan
*Xurşid* – günəş
*Xülq* – xasiyyət, təbiət

## İ

*İçi acıldı* – yazığı gəldi
*İgin* – qorxunc, çox təhlükəli
*İkram* – hörmət, təzim
*İqlim* – ölkə
*İlində* – önündə
*İltər* – yetər, çatar
*İnayət* – yaxşılıq, kömək, mərhəmət
*İraqi* – bir musiqi muğamı
*İralmaq* – ayrılmaq
*İrmək* – çatmaq, qovuşmaq
*İsfahani* – bir musiqi muğamı
*İvmək* – tez, cəld

## K

*Kan* – mədən
*Karlanqın* – quş adı
*Key* – çox, yaxşı
*Kəm* – az
*Kəmin* – pusqu
*Kəndi* – özü
*Kibr* – böyüklük, qürurlanma
*Kiçi* – kiçik
*Kirdgar* – Allah, Tanrı
*Kiş* – oxqabı

## Q

*Qafilə* – karvan, atlı dəstəsi
*Qağan* – qəzəbli, qızmış
*Qaqımaq* – qəzəblənmək
*Qaltaban* – yalançı, şarlatan, namussuz, kobud
*Qamu* – hamı
*Qancəri* – necə, nə cür
*Qanda* – harda
*Qanı* – hanı
*Qatında* – yanında, hüzurunda
*Qatmaq* – qoymaq, soxmaq
*Qəhr* – acıq, kədər
*Qəmküsar* – qəm dağıdan
*Qəylə* – xörək adı
*Qopuz* – qədim musiqi aləti
*Qığırmaq* – çığırmaq, çağırmaq
*Qılmaq* – etmək
*Qıynaq* – dırnaq, pəncə
*Qutlu* – uğurlu, xoşbəxt
*Qutlulamaq* – təbrik etmək

**L**

*Laciverd* – qiymətli daş
*Laf* – söz, boşboğazlıq, danışıq
*Laf urmaq* – boşboğazlıq etmək
*Lala* – mürəbbi
*Ləli-bədəxşan* – Bədəxşan ləli

**M**

*Mahəzər* – hazır olan, ortada olan
*Mahtaban* – ayın aydınlığı, parlaq ay
*Manənd* – bənzər, oxşar
*Mehr* – günəş, məhəbbət
*Mədəd* – kömək, yardım
*Məxtum* – qurtarmış
*Məkkar* – aldadan, hiyləgər
*Məlamət* – danlaq, qaxınc
*Mərəz* – dərd
*Məstur* – örtülü, qapalı, bakirə
*Məşriq* – şərq
*Miri-sipah* – qoşun başçısı
*Mövzun* – ahəng, uyğun
*Mühəqqəq* – doğru, yəqin, gerçək
*Müqəyyəd* – bağlı, asılı, düşünən
*Münacat* – gizli söhbət, Allaha dua etmək
*Münəvvər* – işıqlı, işıqlan-dırılmış
*Müsənnif* – əsər yazan, müəllif
*Müstəmənd* – yazıq, biçarə
*Müştaq* – arzulayan, həsrət çəkən.
*Müzzəhhəb* – qızıl suyuna çəkilmiş

**N**

*Nəqarə* – nağara
*Nəqib* – başçı, qəbilə başçısı
*Nəsnə* – bir şey
*Nəsrin* – nəstərən çiçəyi, ağ rəngli çiçək
*Nigar* – gözəl
*Niknam* – yaxşı ad qoymuş
*Nitə* – nə cür

*Novruz* – musiqi havası
*Nücum* – ulduzlardan bəhs edən elm, astronomiya
*Nühuft* – müsiqi havası

**O**

*Oxunmaq* – dəvət etmək, qonaq çağırmaq
*Oluqdəm* – o an, o dəm
*Olusər* – olacaq
*Oran* – miqdar, yer
*Oturaq* – pilləkən

**Ö**

*Ög* – ağıl
*Ögün dövşürmək* – ağlını başına yığmaq
*Ögüş* – çox, bol
*Ömrü dağıldı* – öldü
*Örü* – dik
*Örü* durdu – dik durdu
*Ötə* – sonra, təkrar, irəli

**P**

*Peykər* – bədən, cüssə, surət
*Peymanə* – qədəh, əhd, söz vermək
*Pər* – qanad
*Pəs* – sonra
*Piç* – dolaşıq, sarılmış
*Pünhan* – gizli
*Pür* – dolu, çox
*Pürqəm* – qəmli, dərdli

**R**

*Raz* – sirr
*Razdaş* – sirdaş
*Rəxt* – paltar, yatacaq
*Rəvan* – axan, gedən

**S**

*Saçı* – gəlinə verilən hədiyyə, toy hədiyyəsi, gəlinin başına şəkər, alma, buğda səpmək mərasimi
*Sağmaq* – yuxarı çıxmaq
*Salaq* – ucu zəncirli topuz, gürz
*Salavat* – peyğəmbərə alqış
*Salqın* – sapan
*Sanı* – fikir, təsəvvür
*Səhhar* – sehrçi, sehrbaz

*Səməndər* – odda yaşayan əfsanəvi quş
*Sər* – baş
*Sərd* – soyuq
*Sərhəng* – qoşun böyüyü, qapıçı; gözətçi
*Sərvər* – başçı, rəis
*Sitəm* – zülm, əziyyət
*Sonuncu* – ən son, sonuncu
*Söz öküş* – xülasə, sözün xülasəsi
*Söz sıymaq* – sözü yerə salmaq, rədd etmək
*Söyir* – yuxu, röya
*Suy* – tərəf
*Sün* – yaratmaq

**Ş**

*Şahnaz* – muğam adı
*Şeyda* – aşiq, vurğun
*Şəb* – gecə
*Şəms* – günəş
*Şəngül* – xoş sözlü
*Şir* – süd
*Şiştə* – şeştar, altı telli saz
*Şoluqdəm* – o an, o saat, dərhal

**T**

*Taalallah* – Allah yüksəltsin
*Tana qalmaq* – heyrətlənmək, şaşmaq
*Tanladı* – danladı, təəccüblə qarşıladı
*Taramaq* – araşdırmaq, seçmək
*Tapu* – hüzur
*Taş* – dişarı, xaric
*Təam* – xörək
*Təbir* – yuxu yozma
*Təfərrüc* – qəm-qüssəni dağıtmaq, gəzmə
*Təmbur* – uzun qollu saz
*Tolundu* – batdı, gün batdı
*Turaq* – duraq, qərargah
*Turu gəldi* – ayağa qalxdı
*Tuturqan* – tuturqu, xörək adı
*Tüyur* – quşlar

**U**

*Uçmaq* – cənnət
*Ulalmaq* – böyümək
*Ulayıban* – qataraq, əlavə edərək

*Uru durdu* – dimdik durdu
*Urunmaq* – geyinmək, qoymaq
*Us* – ağıl, zəka, idrak
*Uş* – bu saat, indi
*Utalı-utalı* – qısıla-qısıla, utana-utana

**Ü**

*Ün* – səs
*Ülü* – qisim, bölük, yarı
*Ürdi* – üfürdü

**Y**

*Yaran* – köməkçilər, yoldaşlar
*Yavuz* – pis, yaman, qorxulu, sərt
*Yəğma* – oğurluq, qarət
*Yörə* – fal, xeyir-dua
*Yüküş* – çox, tez

**Z**

*Zaval* – bəla, məhv olmaq
*Zehi* – nə gözəl, nə yaxşı
*Zəbərcəd* – qızıla çalan qiymətli daş
*Zəxm* – yara
*Zikr* – yada salma, söyləmə

# MÜNDƏRİCAT

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .4
Dastani-Əhməd Hərami . . . . . . . . . . . . . . . . . . . . . . . . .17
Lüğət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .111

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Pərinaz Səfərova*

Yığılmağa verilmişdir 05.06.2004.
Çapa imzalanmışdır 21.12.2004.
Formatı 60x90 $^{1}/_{32}$. Fiziki çap vərəqi 3,75.
Ofset çap üsulu. Tirajı 25000. Sifariş 243.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.